# QARABAĞ AZƏRBAYCANDIR!

## Azərbaycan Fransaya etiraz notası verib




4

# DÜNYA MEDİASI:

## "Azərbaycan beynəlxalq bazarda etibarlı qaz təchizatçısına çevrilir"



SƏS
№ 180 (6621) 4 oktyabr 2022-ci il. **Qiymәti 60 qәpik**




3

# Beynəlxalq aləm Ermənistanın kirli oyunlarına aldanmamalıdır

Erməni terrorunun və yalanının nə qədər murdarlıqlara söykəndiyini tarix sübut edir!




4

## Kimlər ünvanlı sosial yardım ala bilər?



11

## "Vətən müharibəsi dövründə kiberhücumların qarşısı müvəffəqiyyətlə alınıb"



4

## Gəncə terroru: 4 oktyabr 2020-ci il



6



## "Yeni reallıqlar fonunda Azərbaycan qazına tələbat durmadan artır"

9

## "İndi özümü yenilənmiş hiss edirəm"



16

## Nüvə müharibəsi başladı: Rusiya "Paseydon"u işə saldı



## Prezident təqaüdünə layiq görülən tələbələr təəssüratlarını bölüşüblər



# Ölkəmizdə şahmatın inkişafına dövlət səviyyəsində böyük diqqət və qayğı göstərilir

*Prezident İlham Əliyev Beynəlxalq Şahmat Federasiyasının prezidentini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Beynəlxalq Şahmat Federasiyasının prezidenti Arkadi Dvorkoviçi qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Beynəlxalq Şahmat Federasiyası arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı. Ölkəmizdə idmanın digər növləri kimi, şahmatın inkişafına da dövlət səviyyəsində böyük diqqət və qayğı göstərildiyi bildirildi. Azərbaycanlı şahmatçıların beynəlxalq yarışlarda qazandığı uğurlar qeyd olundu.

Söhbət zamanı ötən ay Şuşada keçirilən Beynəlxalq şahmat turnirinin əhəmiyyətinə toxunuldu, oktyabrın 2-də Arkadi Dvorkoviçin Naxçıvanda keçirilən 16 yaşadək yeniyetmələr arasında Ümumdünya Şahmat Olimpiadasının açılışında iştirakından məmnunluq bildirildi.

Görüşdə gələcəkdə Azərbaycanda şahmat üzrə nəzərdə tutulan beynəlxalq əhəmiyyətli turnirlər barədə fikir mübadiləsi aparıldı.

## Rəsmi xronika

Prezident İlham Əliyev Ömər Faiq Nemanzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Cüdo Federasiyasının 50 illik yubileyi münasibətilə bir qrup idman mütəxəssisinə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Cüdo Federasiyasının 50 illik yubileyi münasibətilə bir qrup şəxsin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev 2022/2023-cü tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.

# Prezident İlham Əliyev İsrailin müdafiə nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də İsrailin müdafiə naziri Benyamin Qansı qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkə arasında uzun illər davam edən hərbi-texniki əməkdaşlıq və bu sahədə perspektivlər barədə fikir mübadiləsi aparıldı.



# Mövlud Çavuşoğlu: "Türk dünyasında birliyin və həmrəyliyin dərinləşməsi üçün səylərimiz davam edir"

Türk dünyasında birliyin və həmrəyliyin dərinləşməsi üçün səylərimiz davam edir. Bu fikri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu 3 Oktyabr - "Türkdilli Ölkələrin Əməkdaşlıq Günü" münasibətilə özünün tviter hesabında da paylaşımında bildirib. Türkiyənin xarici işlər naziri paylaşımında Türkdilli Ölkələrin Əməkdaşlıq Günü münasibətilə türkdilli dövlətləri təbrik edib.



# XİN: "Ermənistandan hərbi cinayətlərə görə məsuliyyət daşıyan şəxslərin qanun qarşısında cavab verməsini tələb edirik"

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi Ermənistan XİN-in hərbi cinayətlərlə bağlı bəyanatını şərh edib. AZƏRTAC XİN-in Mətbuat xidməti idarəsinə istinadla şərhi təqdim edir: "Ermənistan XİN-in 2022-ci il 2 oktyabr tarixli, Azərbaycan Silahlı Qüvvələri tərəfindən hərbi cinayətlərin törədildiyini iddia edən bəyanatı onilliklər ərzində təcavüzkar siyasət yürüdən, bir milyona yaxın insanın fundamental hüquqlarını tapdalayan, hərbi və mülki şəxslərə qarşı çoxsaylı hərbi cinayətlər törədən bir ölkənin riyakarlığının nümunəsidir.



Vurğulayırıq ki, Ermənistandan fərqli olaraq Azərbaycan öz beynəlxalq öhdəliklərinə ciddi yanaşır və hərbi əməliyyatlar zamanı törədilən cinayətlərlə bağlı iddialar müvafiq dövlət qurumları tərəfindən araşdırılır.

Belə ki, 2022-ci sentyabrın 17-də Azərbaycan Respublikasının Hərbi Prokurorluğu sosial şəbəkələrdə yayılan videoların həqiqi olub-olmaması, habelə videolardakı görüntülərin çəkildiyi zaman və məkan, onlarda əks olunan hərbi qulluqçuların şəxsiyyəti, eləcə də obyektiv həqiqətin müəyyən edilməsi üçün hərtərəfli araşdırmalara başlanıldığını bəyan edib.

Xatırladırıq ki, Ermənistan silahlı qüvvələri tərəfindən hələ Birinci Qarabağ müharibəsindən etibarən nəinki azərbaycanlı hərbçilərə, eləcə də mülki şəxslərə qarşı misli görünməmiş qırğınlar törədilib, yalnız bir gecədə 1992-ci il fevralın 26-da Xocalı şəhərində 613 mülki şəxs xüsusi qəddarlıqla qətlə yetirilib, bu günədək 4000-ə yaxın azərbaycanlının taleyi barədə heç bir məlumat verilməyib.

2020-ci oktyabrında Azərbaycanın Gəncə, Bərdə, Mingəçevir şəhərlərinin mülki əhalisini raket hücumuna tutaraq insanlıq əleyhinə cinayətlər törədilib.

Ermənistanın səbəbkarı olduğu mina təhlükəsi bu gün bölgədə insanların həyatına ciddi hədədir. 2020-ci ilin noyabrından bu günədək əksəriyyəti mülki şəxs olmaqla 250-dək insan mina qurbanı olub. Azərbaycan ərazilərində aşkarlanan minaların 2021-ci ildə Ermənistanda istehsal olunması faktı isə Ermənistanın bir tərəfdən mina xəritələrini hələ də tam olaraq Azərbaycana verməyərək, digər tərəfdən yeni minalar basdırmaqla azərbaycanlılara qarşı hərbi cinayətlərini davam etdirdiyinin sübutudur.

Ermənistan hökuməti bu günədək törədilən hərbi cinayətlərin qarşısının alınması və ya törədilmiş cinayətlərə görə aidiyyəti şəxslərin məsuliyyətə cəlb edilməsi istiqamətində bu günədək heç bir əməli tədbir görməyib.

Ermənistanın əsassız iddialar yayaraq beynəlxalq ictimaiyyəti yanıltmaq və öz məsuliyyətini gizlətmək cəhdlərini qətiyyətlə qınayırıq. Ermənistandan beynəlxalq öhdəliklərinə əməl etməyi və çoxsaylı hərbi cinayətlərə görə məsuliyyət daşıyan şəxslərin qanun qarşısında cavab verməsini tələb edirik".

# DÜNYA MEDİASI:

## “Azərbaycan beynəlxalq bazarda etibarlı qaz təchizatçısına çevrilir”







Prezident İlham Əliyevin Bolqarıstana rəsmi səfəri dünya mediasının diqqət mərkəzindədir










**Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana rəsmi səfəri dünya mediasının diqqət mərkəzindədir. Gürcüstanın nüfuzlu mətbuat orqanları olan aktual.ge, interpressnews.ge, apsny.ge portalları, 1TV.ge televiziya kanalı Azərbaycan Prezidentinin bu səfəri və keçirdiyi görüşlərdə səsləndirdiyi fikirləri yayımlayıb.**

Mətbuatda Azərbaycan Prezidenti İlham Əliyevin Sofiya şəhərində Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimində çıxışı zamanı səsləndirdiyi fikirlərə xüsusi yer verilib: ”Uzun illər Azərbaycan beynəlxalq bazarda və ilk növbədə, Avropa bazarında etibarlı neft təchizatçısı olub. İndi isə etibarlı qaz təchizatçısına çevrilir. Ötən il qaz ixracımız təxminən 19 milyard kubmetr təşkil etmişdir. Bu il biz ixracımızı 22 milyard kubmetrə qədər artıracağıq”.

Materiallarda həmçinin bildirilir ki, Azərbaycan və Avropa İttifaqı arasında enerji sahəsində imzalanmış Memoranduma əsasən Azərbaycan Avropaya qaz ixracını iki dəfə artırmağı planlaşdırır.

Dövlətimizin başçısının çıxışından gətirilən sitatda deyilir: ”Biz TANAP kəməri ilə nəql olunan qaz ixracının 16 milyard kubmetrdən 32 milyard kubmetrə, eləcə də TAP kəməri ilə isə 10 milyard kubmetrdən 12 milyard kubmetrə qədər genişləndirilməsi ilə bağlı tərəfdaşlarımızla məsləhətləşmələrə artıq başlamışıq. Çünki bunu etmədən əlavə qazın ixracı çətin olacaq”.

Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Sofiyada keçirilən Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimi ərəb KİV-lərinin də diqqət mərkəzində olub.

AZƏRTAC və digər agentliklərin xəbərlərinə istinadla Misirin ”Dustur”, Səudiyyə Ərəbistanının ”Al Borsa”, Əlcəzairin ”Şuruq” və ”Əl Hərir”, habelə ”Aawsat”, ”Attaqa” portalları və ”Al Arabia” telekanalının yaydığı materiallarda qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyev, Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen, Bolqarıstan Prezidenti Rumen Radev, Serbiya Prezidenti Aleksandar Vuçiç, Yunanıstanın Baş naziri Kiriakos Mitsotakis, Rumıniyanın Baş naziri Nikolae-Yonel Çuke, Bolqarıstan müvəqqəti Hökumətinin rəhbəri Qılıb Donev, Şimali Makedoniya Prezidenti Stevo Pendarovski və Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun icraçı direktoru Teodora Georgiyevanın çıxışlarında layihənin Avropanın enerji təhlükəsizliyi üçün əhəmiyyətindən bəhs edilib.

Xəbərlərdə diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev ötən il Azərbaycanın qaz ixracının təxminən 19 milyard kubmetr təşkil etdiyini, onun 8,2 milyard kubmetrinin Avropaya nəql olunduğunu söyləyib. O əlavə edib ki, bu il göstərilən rəqəm 22 milyard kubmetrə qədər artacaq və onun 11,5 milyard kubmetri Avropa istehlakçılarının payına düşəcək. Eyni zamanda, Azərbaycan 2027-ci ilə qədər təbii qazın təchizat həcmini ən azı iki dəfə artırmağı planlaşdırır.

Ərəb KİV-in materiallarında Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun texniki göstəriciləri və səhmdarları barədə də məlumatlar yer alıb.



# “Vətən müharibəsi dövründə kiberhücumların qarşısı müvəffəqiyyətlə alınıb”



“Vətən müharibəsi dövründə dövlətimizin informasiya resurslarına çoxsaylı kiberhücumlar təşkil edilib, bu hücumların qarşısı müvəffəqiyyətlə alınıb”. SİA-nın verdiyi məlumata görə, bu sözləri Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov dünən Bakıda keçirilən ”Qlobal hibrid müharibə və kibertəhlükəsizlik” sammitində çıxışı zamanı deyib.

Onun sözlərinə görə, İKT hər gün həyatımıza daha geniş daxil olur, müxtəlif sferalarda qarşılıqlı əlaqəni asanlaşdırır: ”Bununla yanaşı, ”virtual reallıq” eyni zamanda real həyatda mövcud olan mənfi elementlər: dələduzluq, cinayətkarlıq, zorakılıq halları virtual dünyaya da proyeksiyalanır və spamlar, viruslar, fərdi məlumatların ələ keçirilməsi, şantaj, kibercinayətkarlıq, kiberterrorizm kimi bütün dünyanın birgə mübarizə aparmaqla minimallaşdırılması mümkün olan təhdidlər yaranır.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin 44 günlük Vətən müharibəsində möhtəşəm qələbəyə imza atması bütün sahələrdə olduğu kimi medianın da fəaliyyətində ruh yüksəkliyi yaradıb. 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidentinin ölkəmiz haqqında həqiqətlərin dünyaya çatdırılması istiqamətində sosial şəbəkələrin və medianın potensialından peşəkarcasına istifadə etməsi düşmənin ölkəmiz ətrafında informasiya vakumu yaratmasına imkan vermədi. Bu jurnalistlər, ümumiyyətlə isə hər bir Azərbaycan vətəndaşı üçün dəyərli nümunədir”. Ə.İsmayılov qeyd edib ki, kiberfəzada sərhədlər və məhdudiyyətlər yoxdur, kibertəhdidlər istənilən yerdə baş verə və qısa müddət ərzində böyük ziyan vura bilərlər: ”Buna görə də İKT-nin istifadəsi zamanı inamın və təhlükəsizliyin yüksəldilməsi dünya ictimaiyyəti üçün ən aktual məsələlərdən birinə çevrilir.

Beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi problemlərinə baxıldıqda birbiri ilə qarşılıqlı əlaqəli hərbi-siyasi, kriminal və terror xarakterli üç növ təhdidin olmasından çıxış etmək lazımdır. İKT-ni təkcə hər hansı qanun pozucusu, cinayətkar qruplar, terrorçu və ekstremist təşkilatlar deyil, hətta dövlətlər də siyasi, iqtisadi və hərbi məqsədlərlə istifadə edə bilərlər. Bu yolla örtülü təcavüz həyata keçirərək milli, regional və qlobal səviyyədə təhlükəsizlik təhdidləri yaradırlar. 44 gün davam etmiş Vətən müharibəsi zamanı informasiyanın nə qədər böyük önəm daşıdığının bir daha şahidi olduq. 2020-ci il sentyabrın 27-də başlanmış hərbi əməliyyatlar Ermənistanın kapitulyasiyası ilə başa çatdı və Azərbaycan Silahlı Qüvvələri işğal edilmiş əzəli torpaqlarımızı düşməndən azad etdi. İşğalçı üzərində qazanılmış Zəfər xalqımızın hərb tarixinə qızıl hərflərlə yazılmış ən parlaq səhifələrdən biri kimi bizim və sonrakı nəsillərin iftixar mənbəyi olaraq qalacaq”.

MEDİA-nın İcraçı direktoru vurğulayıb ki, informasiya müharibəsi, psixoloji qarşıdurma, hibrid müharibə kimi yeni termin və anlayışlar ənənəvi müharibə barədə təsəvvürləri xeyli dəyişdirib: ”Bu gün xüsusi texnologiyaların köməyi ilə dövlətlərin ordusuna və əhalisinə təsir göstərmək imkanları mövcuddur. Eləcə də öz məlumat qaynaqlarını, əhalini düşmənin psixoloji təsirindən etibarlı qorumaq informasiya müharibəsində önəmli vəzifə sayılır. Hərbi əməliyyatlar zamanı ən vacib məqamlardan biri öz məlumat mənbələrini düşmən təsirindən qorumaq idi və Azərbaycan tərəfi bu işin öhdəsindən gəlməyi bacardı. Müharibə dövründə dövlətimizin informasiya resurslarına çoxsaylı kiberhücumlar təşkil edilib, bu hücumların qarşısı müvəffəqiyyətlə alınıb. Ümumiyyətlə, Ermənistan tərəfi, onları himayə edən xarici media mənsubları və sosial şəbəkə istifadəçiləri Vətən müharibəsi günlərində yüzlərlə belə saxta xəbərlər yaysa da, bunların çoxu məharətlə təkzib edilirdi. Bütün bunlar bir daha göstərir ki, informasiya müasir münaqişələr və müharibələr dövründə yetərincə böyük rol oynayır və dövlətin informasiya təhlükəsizliyinin təmin edilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir”.

***Arzu Qurbanlı***

---

TƏRS BAXIŞ

# Beynəlxalq aləm Ermənistanın kirli oyunlarına aldanmamalıdır

*Erməni terrorunun və yalanının nə qədər murdarlıqlara söykəndiyini tarix sübut edir!*

2020-ci ilin 44 günlük Vətən müharibəsi zamanı Ermənistan Azərbaycanın dinc sakinlərini, körpə uşaqlarını qətlə yetirməkdə davam edirdi. Ermənistanın özünün aqressiv siyasəti və antihumanist fəaliyyəti ilə bir daha sübut etdi ki, beynəlxalq hüquq və konvensiyalar bu ölkənin istənilən hərbi-siyasi rəhbərliyi üçün heç nədir. Fakt budur ki, Azərbaycan Ordusunun sarsıdıcı zərbələri altında geri çəkilən erməni hərbi birləşmələri 1949-cu ildə qəbul edilmiş Cenevrə konvensiyasını və ona əlavə olunmuş protokolları, eləcə də bu istiqamətdə olan BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozdu. Beləliklə, Ermənistan qəsdən, bilərəkdən hərbi əməliyyatların getdiyi ərazilərdən kifayət qədər uzaq məsafələrdə yerləşən və dinc əhalisinin yaşadığı şəhər və kəndləri intensiv atəşlər altında saxladı.

## Hətta atəşkəs rejimi zamanı ermənilərin Azərbaycanın dinc əhalisini, o cümlədən azyaşlı uşaqlarını qətlə yetirdikləri barədə faktlar kifayət qədərdir

Söz yox ki, bütün bunlar Ermənistanın hərbi-siyasi rəhbərliyinin birbaşa əmr və tapşırıqları əsasında baş verib və bu gün də həmin terror halları davam edir. Təkcə müharibədən sonra mülki və s. yüzlərlə vətəndaşlarımızın minalara düşərək həyatlarını itirmələri, yaxud yaralanmaları da bu cür qənaətə gəlməyə zəmin yaradır.

Azərbaycan Respublikasının Baş prokurorluğunun məlumatına görə, 2020-ci ilin 27 sentyabr-10 noyabr tarixləri arasında Ermənistan silahlı qüvvələri Azərbaycanın dinc əhalisinin yaşadığı rayon və şəhərlərə, kənd və qəsəbələrə 30 000 mərmi, 227 reaktiv mərmi atıblar. Qeyd olunub ki, silahlı erməni birləşmələrinin dinc əhalimizə açdıqları atəşlər nəticəsində 93 insan, o cümlədən, 12 yetkinlik yaşına çatmayan uşaq və 27 qadın həyatlarını itirib. 50 yetkinlik yaşına çatmayan uşaq, 101 qadın daxil olmaqla isə ümumilikdə 407 nəfər insan müxtəlif ağır dərəcəli xəsarətlər alıblar.

Tarixdə də ermənilərin azərbaycanlıları kütləvi şəkildə terrorizə etmələrini sübut edən faktlar kifayət qədərdir. Əsasən, 1918-ci ildə erməni daşnakları Bakıda, Şamaxıda, Zəngəzurda, Qubada Azərbaycanın din c əhalisinə qarşı qətliamlar, soyqırımları həyata keçiriblər. Dəhşətli işgəncələrə məruz qalan azərbaycanlıların gözləri çıxarılır, yandırılır, başları kəsilir, kürəklərinə qaynar samovarlar bağlanır, hamilə qadınların qarınları yarılaraq doğulmamış körpələr süngülərə taxılırdılar. Rəsmi mənbələrin məlumatlarına görə, bu soyqırımları nəticəsində 12 min azərbaycanlı öldürülüb, 10 minlərlə insan itkin düşüb.

Ötən əsrin 80-ci illərinin yarısında aqressiv erməni millətçiləri yenidən Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməyə başladılar. Qondarma şəkildə Qarabağ problemini yaratmaqla ermənilər azərbaycanlılar üzərində kütləvi qırğınlara start verdilər, şəhər və kəndləri dağıtdılar, tarixi, dini abidələri yer üzündən sildilər. Təkcə Başlibel, Ağdaban, Bağanis-Ayrım, Xocalı soyqırımları kimi olaylar erməni faşizminin aşkar sifətini əks etdirən acı reallıqlardır. Təbii ki, bu qırğınların içində Xocalı hadisəsi ən dəhşətlisidir.




Üstəlik, 1994-cü ildə separatçı rejim işğal edilmiş ərazilərimizdə çoxsaylı insan tələfatları ilə nəticələnmiş 373 terror aktı həyata keçirib. Davamlı erməni aqressiyası ilə müşahidə olunan Birinci Qarabağ müharibəsində 20 min nəfər soydaşımız həlak oldu, 50 mini ilə yaralandı, minlərlə yaşayış məntəqələri dağıdıldı, milyondan çox insanımız qaçqın düşdü. Hətta atəşkəs rejimi zamanı ermənilərin Azərbaycanın dinc əhalisini, o cümlədən azyaşlı uşaqlarını qətlə yetirdikləri barədə faktlar kifayət qədərdir.

## Lobbilərin başında dayanan başlıca təxribatçı qüvvə isə ANCA - erməni milli komitəsidir

Erməni lobbisi daim özünü dünyada əzabkeş, məzlum kimi göstərməyə çalışıb. Ermənistanın sentyabrın 12-dən 13-nə keçən gecədən başlayaraq ayın 14-nə qədər Azərbaycanla müəyyən olunmamış şərti sərhədlərində təxribata əl atmalarından sonra dünya ermənilərinin lobbi təşkilatları yenidən fəallaşaraq anti-Azərbaycan fəaliyyətlərinə start verdilər. Hər zaman olduğu kimi, erməni lobbisi və onun havadarları Azərbaycan barədə dezinformasiyalar yaymağa başladılar. Bu lobbilərin başında dayanan başlıca təxribatçı qüvvə isə ANCA - erməni milli komitəsidir. Əsas məqsəd isə Azərbaycanı bütün dünyaya vəhşi kimi təqdim etmək idi. Bu kirli oyunlar dünyanın aparıcı KİV-lərinə qədər oynanıldı.

Son bir neçə gündə isə ermənilər saxta videoçarxlar nümayiş etdirməklə guya Azərbaycan hərbçilərinin əsir düşmüş erməniləri ”güllələyən” kadrları yaydılar.

Təbii ki, bütün bunlar ilk növbədə sülh prosesini pozmağa, danışıqlara mane olmağa hesablanmış oyunbazlıqlardır. Bu baxımdan, beynəlxalq təşkilatlar da artıq ermənilərin kirli oyunlarının qurbanlarına çevrilməməlidirlər. Belə ki, həmin saxta kadrlardan sonra bəzi Avropalı və qərbli siyasətçilər dərhal bu kimi yoxlanılmamış, təsdiqini tapmamış video ətrafında haray-həşirlər qaldırmağa başladılar. 30 il azərbaycanlılara qarşı törədilən terrorlara, erməni işğalına susanların erməni ittihamlarına dəstək göstərmələri isə bir daha əsl reallığı ortaya çıxarmış olur. Bütün bunlardan sonra isə Ermənistanın hərbi-siyasi rəhbərliyinin sülh danışıqları fonunda nümayiş etdirdikləri fəaliyyətlərinin qeyri-səmimiliyi isə növbəti dəfə öz təsdiqini tapır və Azərbaycan üçün sülhməcburetmə əməliyyatlarına başlamasına zəminlər yaradır. Bunun baş verməməsi üçün isə məlum beynəlxalq təşkilatlar erməni tərəfinin kirli, iyrənc oyunlarına getməməli, Ermənistanın ağlını başına toplayaraq doğru seçim etməsi yönündə aktiv fəaliyyətə başlamalıdırlar.

***Rövşən RƏSULOV***

---

# Azərbaycan Fransaya etiraz notası verib

Dünən Fransanın Azərbaycandakı səfiri Zakari Qros Xarici İşlər Nazirliyinə dəvət edilib və görüş zamanı 1 oktyabr 2022-ci il tarixində Fransadakı Azərbaycan səfirliyinə qarşı bu ölkədəki radikal erməni qrupları tərəfindən törədilən növbəti vandalizm aktı ilə bağlı XİN-in etiraz notası Fransa səfirinə təqdim edilib. SİA Trend-ə istinadən xəbər verir ki, Xarici İşlər Nazirliyindən verilən məlumata görə, görüşdə son zamanlar Azərbaycan Respublikasının Fransa Respublikasının ərazisində yerləşən diplomatik nümayəndəliklərinə qarşı Fransada məskunlaşan radikal erməni qrupları tərəfindən törədilən hücumların sayının artdığı qeyd edilib. Növbəti belə bir hücumun 1 oktyabr 2022-ci il tarixində gecə saatlarında baş verdiyi, bir qrup radikal erməni tərəfindən Səfirliyin inzibati binasına qırmızı rəngli boya atıldığı və binanın üzərinə Azərbaycan əleyhinə təhqiramiz ifadələr yazıldığı müqabil tərəfin diqqətinə çatdırılıb.



Qeyd olunan hadisənin Azərbaycan tərəfinin Fransanın səlahiyyətli qurumlarından Səfirliyin və onun əməkdaşlarının mühafizəsinin təmin edilməsi ilə bağlı dəfələrlə müxtəlif səviyyələrdə ifadə edilmiş tələbləri fonunda Fransa hökuməti tərəfindən lazımi tədbirlərin görülməməsi nəticəsində baş verdiyi qeyd edilib. Qəbul edən dövlət olaraq Fransa hökuməti tərəfindən Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin təhlükəsizliyinin lazımi səviyyədə təmin olunmamasının bu ölkə tərəfindən diplomatik əlaqələr haqqında 1961-ci il tarixli Vyana Konvensiyasından irəli gələn öhdəliklərin yerinə yetirilməməsi kimi dəyərləndirildiyi bildirilib.

Fransa Respublikasının səlahiyyətli qurumlarından bu ölkənin ərazisində yerləşən Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və Azərbaycan Mədəniyyət Mərkəzinin mühafizəsinin lazımi qaydada təşkil edilməsi, indiyə qədər törədilmiş zorakılıq aktlarının hərtərəfli araşdırılması və təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsi, Səfirliyin inzibati binasına vurulmuş ziyanın aradan qaldırılması və müvafiq təzminatın ödənilməsinin təmin olunması tələb edilib. Fransa səfiri Azərbaycan səfirliyinə qarşı baş verən hadisənin təəssüf doğurduğunu bildirib və Azərbaycan tərəfinin müraciətinin Fransanın səlahiyyətli orqanlarına çatdırılacağını qeyd edib.

# 3 oktyabr 1993:
# Yeni tarixin başlanğıc dövrü

### Azərbaycan xalqı bilirdi ki, bu ağır və böhranlı dövrdə ölkəyə sahib çıxa biləcək Heydər Əliyev kimi Liderə ehtiyacı var

Azərbaycan xalqının taleyində böyük əhəmiyyətə malik elə tarixi günlər var ki, həmin vaxtlarda onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub. Belə günlərdən biri də 1993-cü ilin 3 oktyabr tarixinə təsadüf edir. Məhz həmin gün xalqımız özünün gələcək taleyinin, müqəddəratının həllini tapa biləcək ən mühüm seçimini etdi. 1993-cü il oktyabrın 3-də ölkəmizdə keçirilən prezident seçkilərində məhz xalqının çağırışı ilə onu xilas etməyə gələn Heydər Əliyev 98.84 faiz səslə Prezident seçilməklə ölkə vətəndaşların etimadını qazandı.

Mühüm tarixi faktlardan biri də budur ki, Ümummilli Lider Heydər Əliyevin seçilərdə belə bir böyük qələbə qazanması qədirbilən xalqımızın Ulu Öndərə, onun möhkəm siyasi iradəsinə və yüksək nüfuzuna, idarəçilik bacarığına olan dərin inamdan qaynaqlanırdı. Ən əsası isə Azərbaycan xalqı bilirdi ki, bu ağır və böhranlı dövrdə ölkəyə sahib çıxa biləcək Heydər Əliyev kimi Liderə ehtiyacı var.

Fakt budur ki, hələ 1969-1982-ci illərdə - Heydər Əliyevin birinci dəfə hakimiyyətdə olduğu müddətdə Azərbaycan üçün gördüyü misilsiz işləri xalqımız unutmamışdı. Eyni zamanda, 1990-cı ildə 20 Yanvar faciəsinin səhəri günü Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqımıza başsağlığı verməsi, onunla birgə olduğunu bəyan etməsi dahi Liderə olan inamı daha da artırmışdı. Həyatının mənasını xalqına və dövlətinə xidmətdə görən Heydər Əliyevin müstəqil, gənc respublikamıza rəhbərlik etdiyi dövrdə gördüyü əvəzsiz işlər Azərbaycanı çox qısa müddətdə beynəlxalq arenada böyük nüfuza və söz sahibinə malik bir ölkəyə çevirdi.

### Heydər Əliyevin beynəlxalq arenadakı şəxsi nüfuzu bütün tərəddüdlərə son qoydu

Ötən əsrin 90-cı illərinin əvvəllərindəki ağır dövrlərdə məhv olmaq, müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalan Azərbaycan xalqı yeganə çıxış yolunu Heydər Əliyevdə gördü və əminliklə öz Liderinə etimad göstərdi. İlk növbədə, hər bir azərbaycanlının gələcəyə ümidini itirməməsinə, daha dəqiq desək, inamlı baxışında öz təşəkkülünü tapmış oldu. Bu təşəkkül və təcəssüm hələ ilkin kövrək addımların başlanğıcı idi, qarşıda isə həmin addımları möhkəmləndirmək məsuliyyəti dayanırdı. Ancaq ən əsası, Heydər Əliyev faktoru Azərbaycançılıq məfkurəsinin təməlini qoymuşdu, dövlətimizin, xalqımızın xilasının da kökündə həmin reallıq dayanırdı.

Eyni zamanda, həmin vaxtlar ölkəmiz dövlət müstəqilliyini yenicə bərpa etmişdi, Azərbaycan işğalçı Ermənistanla müharibə şəraitində idi. Bu risk doğuran faktorlar böyük dövlətləri və şirkətləri Azərbaycana sərmayə yatırmaqda ehtiyatla davranmağa vadar edirdi. Məhz həmin vaxtlarda ölkəmizi çətin vəziyyətdən çıxarmaq üçün mükəmməl addım atıldı, Heydər Əliyevin beynəlxalq arenadakı şəxsi nüfuzu bütün tərəddüdlərə son qoydu: 1994-cü il sentyabrın 20-də Azərbaycanın ən yeni tarixində dönüş nöqtəsi olan neft müqavilələri imzalandı. Sonradan "Əsrin müqaviləsi" adlandırılan bu tarixi saziş ölkəmizin gələcək inkişafına və təhlükəsizliyinə etibarlı zəmin yaratdı, dünya xəritəsindəki mövqeyi möhkəmləndirdi. Azərbaycan artıq bütün dünyada neft ölkəsi olaraq tanınmağa başladı. Bu baxımdan, sözügedən proseslərin təhlilini apararkən həm də belə bir nəticə hasil etmək mümkündür: Azərbaycanın inkişafının sonrakı mərhələləri göstərir ki, ölkəmizi dünyanın vacib aktorları sırasına Heydər Əliyevin şəxsi nüfuzu



*Bəhruz Quliyev,*
*"SƏS" Qəzetinin baş redaktoru,*
*Fəlsəfə üzrə fəlsəfə doktoru*

sayəsində qazanılan uğurlar çıxarıb!

İlk növbədə isə qarşıda dayanan məqsəd erməni işğalına son qoymaq üçün bu istiqamətdə ilkin strategiyanın müəyyən edilməsi oldu. Ümumiyyətlə, Heydər Əliyev yaxşı bilirdi ki, güclü, nizam-intizamlı ordu yaratmadan Ermənistanın torpaqlarımıza təcavüzünün qarşısını almaq mümkün olmayacaq. Odur ki, hakimiyyətə qayıdışından dərhal sonra bu məsələyə əsas prioritet kimi yanaşmağa, böyük diqqət ayırmağa başladı.

Ulu Öndər Heydər Əliyev: "Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün, respublikanı müdafiə etmək üçün qüdrətli bir ordunun yaradılması bizim əsas vəzifəmizdir"

Prezident Heydər Əliyev 1993-cü il oktyabrın 10-da Andiçmə mərasimindəki çıxışında bu barədə danışaraq deyirdi: "Azərbaycan Respublikası bir müstəqil dövlət kimi özünü müdafiə etməyə qadir orduya malik olmalıdır. Təəssüf ki, müstəqillik əldə edildən sonra keçən dövrdə bu sahədə az iş görülübdür. Lazım gələrsə, sülh yolunda addımlarımız nəticə verməsə, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün, respublikanı müdafiə etmək üçün qüdrətli bir ordunun yaradılması bizim əsas vəzifəmizdir".

Məhz Ulu Öndərimiz Heydər Əliyev nitqində qətiyyətlə bəyan etdi ki, şəhidlərimizin qanı yerdə qalmayacaq. Azərbaycan xalqı öz qamətini düzəldəcək, ayağa qalxacaq, gücünü birləşdirəcək, müasir ordusunu yaradacaq və müstəqil dövlətini, öz ərazisini bundan sonra göz bəbəyi kimi qoruyacaq. İlkin strategiya müəyyən edildikdən sonra Ermənistan-Azərbaycan münaqişəsində atəşkəsin əldə edilməsi ordu quruculuğunda köklü islahatların aparılması üçün əlverişli imkan yaratdı. Çox keçmədən ölkəmizdə ordu quruculuğu sahəsində ciddi addımlar atıldı. Vahid komandanlığa tabe olan nizami ordu yaradıldı, Silahlı Qüvvələrimizin maddi texniki bazası gücləndirildi, ordumuz müasir silah və sursatla təmin olundu.

### Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, Ümummilli Lider və xalq məhəbbətini qazanan dühа kimi qalıb

Ümummilli Liderin qarşıya qoyduğu ümdə vəzifələrdən biri də milli dövlət quruculuğunu həyata keçirmək idi və bu məsələ də qısa zaman kəsiyində həllini tapdı. Ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət quruldu. Bu gün öz tarixi və milli ənənələrindən bəhrələnən, dünya demokratiyası təcrübəsinə, ümumbəşəri dəyərlərə əsaslanan Azərbaycan dövləti tam təşəkkül tapıb və uğurla fəaliyyət göstərir. Beləliklə, Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, Ümummilli Lider və xalq məhəbbətini qazanan dühа kimi qalıb. Xalqımızın tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda onun qədər misilsiz xidmətlər göstərmiş ikinci dövlət başçısı və siyasi lider tapmaq mümkün deyil.

Bu arada, mühüm və daim xatırlana biləcək nüansa toxunaraq istərdim ki, əgər Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi, ideyası, əsaslı şəkildə dərk olunmasaydı, bu gün biz Zəfər və Qələbə əzmimizdən danışa bilməzdik. Qarabağımızın düşmən işğalından azad edilməsi ilə nəticələnən 44 günlük Zəfər yolumuzun da təməlində məhz bu tarixi məfkurə, ideyaya sadiqlik, layiqli varislik dayanır. Və bu gün Prezident İlham Əliyev çıxışlarında bu kimi tarixi faktların qorunub saxlanılması, gələcək nəsillərə ötürülməsi ilə bağlı fikirlərini ifadə edərkən də xüsusi olaraq Ulu Öndər Heydər Əliyevin tarixi qərarlarından və bütövlükdə Azərbaycan xalqının ona olan böyük etimadından danışır, xatırlamalar edir, qərarlı addımlar atır, bunu millətin, dövlətin, xalqın iradəsinə xas olduğunu vurğulayır.

Ölkəmizdə hökm sürən xaotik və anarxist meyllərin neytrallaşdırılmasında, mürəkkəb siyasi-hüquqi kataklizmlərin qarşısının alınmasında və ictimai-siyasi sabitliyin əldə edilməsində Heydər Əliyevin Liderlik keyfiyyətləri birinci dərəcəli amil kimi xüsusi rol oynadı Ötən əsrin 90-cı illərinin əvvəlində Azərbaycanda hakimiyyətdə olan səriştəsiz qüvvələr - AXC-Müsavat cütlüyü istər Naxçıvanda, istərsə də Bakıda korporativ maraqlar əsasında çıxış edərək sabitliyə və inkişafa mane olmaq yönündə xüsusi fəallıq göstərirdilər. Daha dəqiq desək, ölkəmizin o zamankı iqtidarının müstəqillik ideyalarına etinasız yanaşmalarının nəticəsi idi ki, şəraitdən istifadə edən təcavüzkar Ermənistan strateji baxımdan ən əlverişli ərazilərimizi işğal etdi və bu da son deyildi...

Xalqımızın bir sıra ictimai-siyasi xadimlərinin terror aktlarına məruz qalmaları, dövlət strukturları arasında çəkişmələrə start verilməsi və bunların zaman-zaman daha kəskin xarakter alması Azərbaycanın bir dövlət kimi varlığını, yenicə əldə etdiyi müstəqilliyini böyük sual altında qoymuşdu. Ölkədə tam bir anarxiya yaşanır, daxili çəkişmələrin ardı-arası kəsilmirdi. Hətta əlinə silah alan hər kəs dərhal hakimiyyəti ələ keçirməyə çalışırdı və eyni zamanda, çox təhlükəli separatçılıq amilləri meydana çıxmışdı. Belə bir acınacaqlı vəziyyət 1993-cü ilə, Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gəlməsinədək davam etdi. Ölkəmizdə hökm sürən xaotik və anarxist meyllərin neytrallaşdırılmasında, mürəkkəb siyasi-hüquqi kataklizmlərin qarşısının alınmasında və ictimai-siyasi sabitliyin əldə edilməsində Heydər Əliyevin Liderlik keyfiyyətləri birinci dərəcəli amil kimi xüsusi rol oynadı.

### Prezident İlham Əliyevin hələ 2003-cü ildə ölkə başçısı kimi səlahiyyətlərinin icrasına başladığı ilk gündən hakimiyyəti xalqa xidmət vasitəsi hesab etdiyini bildirməsi varisliyin layiqli davamının siqnalı idi

Bu gün Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə, reallıqlarına və qanunauyğunluqlarına müvafiq surətdə uğurla davam etdirilir. Məhz bunun nəticəsidir ki, bu gün Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin fonunda müxtəlif inkişaf modellərinin uğurla tətbiqi və hədəflənən nəticələrin əldə olunması, sosial-siyasi islahatların mütəmadi qaydada həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyəti, hüquqi dövlətin inkişafına maksimum əlverişli şəraitin yaradılması və səmərəli xarici siyasət kursunun həyata keçirilməsi müasir Azərbaycan dövlətinin gücünü artıran fundamental faktor kimi çıxış edir. 44 günlük Vətən müharibəsi və Zəfər reallığı isə bu fundamental faktorlara əlavə əhəmiyyətləri daxil etdi.

Prezident İlham Əliyevin hələ 2003-cü ildə ölkə başçısı kimi səlahiyyətlərinin icrasına başladığı ilk gündən hakimiyyəti xalqa xidmət vasitəsi hesab etdiyini bildirməsi varisliyin layiqli davamının siqnalı idi. Onun Ümummilli Lider Heydər Əliyev siyasi xəttini yüksək səviyyədə davam və daha da inkişaf etdirməsi müasir dövrdə Azərbaycanın dinamik tərəqqisinin şərtləndirən mühüm amil kimi çıxış edir. Hələ illər öncə İlham Əliyev dövlət xadimi olaraq Azərbaycanın Ermənistanın işğalçılıq siyasəti ilə barışmayacağını bəyan edir, torpaqlarımızda ikinci erməni dövlətinin yaradılmayacağını vurğulayır, haqq və ədalət səsimizi çoxsaylı beynəlxalq sammit və konfranslarda bəyanatlarla ucaldırdı.

Şuşamızın işğaldan azad olunması münasibəti ilə Fəxri Xiyabanı və Şəhidlər Xiyabanını ziyarət edən cənab İlham Əliyev həm də Ata vəsiyyətini yerinə yetirdiyini qürurla, şərəflə vurğuladı. Bu, həm də belə bir qənaətdir ki, Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyev zamanında işğal altındakı torpaqlarımızın, xüsusilə də Şuşamızın azad olunmasında siyasi varisi cənab İlham Əliyevin möhtəşəm yer alacağını görürdü. Uzaqgörən və əbədi liderimizin Şuşa vəsiyyəti də onun azad olunmasından sonra xalqımıza çatdırıldı. Həqiqətən də bu böyük, nəhəng bir tarixi hadisə oldu və bu hadisənin canlı şahidləri olaraq bizlər nə qədər şərəfli tarixi dövrü yaşamağımızdan hədsiz qürur hissi duymaqdayıq. Bu hiss ölçüyəgəlməz dərəcədə nəhəngdir!

Bu gün həyata keçirilən müstəqil daxili və xarici siyasət strategiyası Azərbaycanın beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətli şəkildə irəliləməsini təmin etməklə yanaşı, ölkəmizi dünya siyasətinin əsas konturlarını müəyyənləşdirən güc mərkəzlərinin başlıca strateji tərəfdaşlarından birinə çevirib. Bu, Ulu Öndər Heydər Əliyev yolunun məntiqi davamı, xalqın birmənalı dəstək verdiyi siyasətin bariz nəticəsidir. Azərbaycan xalqını qarşıda hələ çox təntənəli, möhtəşəm və nəhəng zəfərlər, qələbələr gözləyir!

Beləliklə, Heydər Əliyev təkcə Azərbaycanın deyil, həm də dünyanın nadir və bənzərsiz şəxsiyyətlərdən biridir. Onun əziz xatirəsi hər bir azərbaycanlının, hər bir soydaşımızın qəlbində əbədi yaşayır, yaşayacaq və yaşadılacaqdır!




# Gəncə terroru:
## 4 oktyabr 2020-ci il

**İlham Əliyev:**
**"Hər zaman döyüş meydanında məğlubiyyətə uğrayanda belə çirkin əməllərə əl atırlar"**

44 günlük Vətən müharibəsində xalqımız ermənilərin təcavüzkar siyasəti ilə bir daha üz-üzə qaldı. Vətən müharibəsində biz erməninin vəhşi simasını bir daha görmüş olduq. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan beynəlxalq konvensiyalara zidd topladığı silahlarla 44 günlük Vətən müharibəsində beynəlxalq hüquq müstəvisində Ermənistanın işğalçı, eyni zamanda, terrorçu dövlət olduğunu tam şəkildə sübuta yetirən yetərincə faktlar mövcuddur. Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə mülki əhalinin kompakt yaşadığı ərazilərə raket zərbələri endirməsi Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını ortaya qoymuş oldu. Qocaya, cavana, uşağa qıyan erməni müharibə qanunlarını belə pozaraq çirkin niyyətləri ilə tarixən nəyə xidmət etdiklərini bir daha göstərdi. Neçə-neçə qurbanlarımız oldu. Bu erməni faşist ideologiyasıdır. 4 oktyabr 2020-ci il tarixində birinci dəfə OTR-21 TOÇKA ballistik raketindən Gəncə şəhəri birinci dəfə erməni terroristləri tərəfindən vuruldu. Onların hədəfləri mülki insanlar, yaşayış binaları oldu. Hücum nəticəsində bir nəfər öldü, 30 nəfər isə yaralandı. Bu raket hücumu müharibənin getdiyi ərazidən kənara edilən ilk ciddi hücum idi. Bu, yaşadığımız yüzillikdə bəşər sivilizasiyasının yüksək nöqtəsində baş verəmiş hadisədir. Terrorizm haqqında birmənalı tərif olmasa da, mütəxəssislərin əksəriyyətinin qənaətinə görə siyasi, dini, ideoloji və iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni əməllərin, zorakılığın, gücün, hədənin tətbiq olunmasıdır. Təbii ki, real həyatda terror aktlarından daha çox günahsız insanlar, dövlət adamları ziyan çəkir və siyasi, etnik, dini və s. zəmində yaranan terrorların şahidi oluruq. Tarixin müxtəlif dönəmlərində Azərbaycan xalqı terror aktlarının, vəhşiliklərin, soyqırımların acı nəticələrini yaşamışdır. Ermənistan tərəfindən etnik terrora məruz qalmış Azərbaycan xalqına qarşı törədilən əməllər insani əxlaqa, qanuna, beynəlxalq hüquqa ziddir. Yaşadığımız tarix göstərir ki, erməni terrorlarının ölkəmizdə sayı-hesabı yoxdur. 2020-ci ilin oktyabr ayında Gəncə şəhəri Ermənistan Silahlı Qüvvələri tərəfindən 5 dəfə ayrı-ayrı zamanlarda bombalanıb. Bombalanmalar 2020-ci il Vətən müharibəsi dövründə baş vermişdir. İkinci raket hücumu isə 5 oktyabrda baş vermişdir. Hücum nəticəsində 3 mülki şəxs yaralanıb. Üçüncü raket hücumu oktyabrın 8-də baş vermişdir. Həlak olan və yaralanan olmamışdır. Dördüncü raket hücumu isə 11 oktyabrda baş vermiş və nəticədə 10 mülki şəxs şəhid olmuş və 40-dan çox insan yaralanmışdır. Bu hücum imzalanan atəşkəsdən bir gün sonra baş vermiş və atəşkəsin pozulması ilə nəticələnmişdir. Mülki şəxsləri hədəf alan beşinci raket hücumu isə 17 oktyabrda baş vermişdir. Hücum nəticəsində hamısı mülki şəxslər olmaqla. 16 nəfər Şəhid olmuş, 55 nəfər isə yaralanmışdır. Hücumlar zamanı şəhərin infrastrukturuna, yaşayış binaları da daxil olmaqla, digər binalara, avtomobillərə ziyan dəymişdir.








### ”BU TERROR AKTI AZƏRBAYCAN XALQININ İRADƏSİNİ QIRA BİLMƏZ”

Bu terror aktları qəddar, faşist xislətli əməllərdir ki, xalqımız bunu yaşayıb. Vətən müharibəsi zamanı düşmənin xain atəşi nəticəsində təkcə Tərtərdə ümumilikdə 16 mülki şəxs qətlə yetirilib, 63 nəfər yaralanmışdır. Müharibə zamanı, həmçinin Tərtər şəhəri də daxil olmaqla, rayonun 40 yaşayış məntəqəsinə 16 min 277 tank, top, qrad, minomyot mərmisi, 21 qadağan olunmuş raket atılmışdı. Nəticədə Tərtərdə 82 çoxmərtəbəli yaşayış binasına, 5949 fərdi evə, 184 sahibkarlıq və 301 qeyri-yaşayış obyektinə, 17 məktəbə, 11 uşaq bağçasına, 1 texniki peşə məktəbinə, 1 musiqi məktəbinə, 30 inzibati binaya və 20-yə yaxın mədəniyyət və səhiyyə müəssisəsinə ziyan dəymişdir. Mülki əhaliyə atəş açmaq isə bütün beynəlxalq konvensiyalarla qadağan olunur və yolverilməzdir. Ona görə də, Ermənistanın beynəlxalq qurumlar qarşısında cavab verməlidir. Döyüş meydanında sarsıdıcı məğlubiyyətə uğrayan Ermənistanın cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini və mülki obyektləri hədəfə alması dünyanın, dünya KİV-lərinin döyüş meydanında iştirak etdiyi bir zamanda baş verir. Moskvada imzalanan humanitar atəşkəs rejimindən sonra Ermənistan silahlı qüvvələrinin qədim Gəncəni raket atəşinə tutması nəticəsində mülki obyektlərə və yaşayış məhəllələrinə aramsız atəşlər yağdırıldı. Çoxlu dağıntılar oldu, insanlar həlak oldu, yaralandı. Onların arasında uşaqlar və qadınlar da var. Gəncədə mülki insanların məskunlaşdığı əraziyə raket hücumu bir daha Ermənistanın günahsız insanları, uşaqları, qadınları hədəfə alaraq ardıcıl olaraq bu cür çirkin hücumlara əl atması onun faşizm xislətini və cinayətkar mahiyyətini bir daha sərgiləyir. Ermənistanın mülki obyektlərə və yaşayış evlərinə raket hücumu beynəlxalq sənədlərə ziddir və Ermənistan bu hərəkətə görə cavab verməlidir. Gəncədə yaşanılan matəm erməni təcavüzkarlığının əsl siması idi. Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin ”Haber Türk” televiziya kanalına müsahibə verərkən bildirmişdir ki, Ermənistanın bu çirkin siyasəti anlaşılandır: ”Çünki onlar hər zaman döyüş meydanında məğlubiyyətə uğrayanda belə çirkin əməllərə əl atırlar. Mülki şəxslərə, əliyalın insanlara qarşı qəddarlıq göstərmək onlar üçün adi bir şeydir. Azərbaycan xalqı bunu Xocalı soyqırımının timsalında görmüşdür.” Gəncədə törədilən terror aktı daş yaddaşımıza həkk olunub. Gecə insanların evlərində yatdığı zaman raket atəşi nəticəsində dağılan yaşayış massivi və raket zərbəsindən məhv olmuş məhəllədə dağılan evlərin qalıqları hər zaman kino lenti kimi göz önündən keçir. Qanlı gecədə sakinlərin həyatını itirməsi, erməni terroristlərinin dinc əhaliyə qarşı törətdikləri cinayətlər sənədlərin dili ilə hər zaman danışır. Yatmış insanlara qarşı törədilən terror insanlıq əleyhinə olan cinayətdir. Azərbaycan Prezidenti İlham Əliyev demişdir ki, bu, Ermənistanın növbəti terror aktıdır: ”Ancaq bu terror aktı Azərbaycan xalqının iradəsini qıra bilməz. Biz düşmənə qarşı daha böyük əzmlə, iradə ilə vuruşacağıq, daha əzmlə, iradə ilə öz torpaqlarımızı azad edəcəyik və Azərbaycan bayrağını işğal edilmiş bütün torpaqlarda qaldıracağıq”.

### İŞĞALÇI ERMƏNİSTAN CENEVRƏ KONVENSİYALARININ TƏLƏBLƏRİNİ KOBUD ŞƏKİLDƏ POZDU

İşğalçı Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, habelə 10 oktyabr 2020-ci il tarixdə saat 12:00-dan etibarən elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutmuşdur. Azərbaycan 44 günlük Vətən müharibəsində uğurlu döyüş əməliyyatı apardı və tarixi ədalət bərpa olundu. Təcavüzkar ermənilərin çirkin siyasətləri iflasa uğradı. Dünyanı təəccübləndirən, hərb tarixində yeni səhifə olan müharibədə Azərbaycan QALİB oldu. 30 illik bir həsrətə son qoyuldu və tarixi torpaqlarımız işğaldan azad olundu. Azərbaycan bu gün işğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işlərinə start verib və genişmiqyaslı layihələr icra olunur.

*Zümrüd BAYRAMOVA*

# "Şimal axını" və məhv olan qaz xəyalı

*Mütəxəssislər yeni zərbələrdən qorxurlar*

**Sentyabrın 26-da Baltik dənizinin dibi ilə Rusiyadan Avropaya çəkilmiş "Şimal axını 2" qaz kəmərində baş verən partlayış bütün Avropanı titrətdi. Hadisənin texniki nasazlıq, yaxud terror aktı nəticəsində baş verdiyi barədə çoxsaylı versiyalar səsləndirildi, xüsusən də uydurma xəbərlər havada uçdu. "Şimal axını 2" qaz kəmərinin operatoru olan "Nord Stream 2 AG" şirkəti bir kəmərdə təzyiqin kəskin azaldığını bildirəndən sonra üç sızma məlum oldu, sentyabrın 29-da İsveç Sahil Mühafizəsi dördüncü qaz sızmasını aşkar etdi.**

"Şimal axını"nda baş verən partlayışlardan sonra Avropada yanacaqla bağlı vəziyyətin pisləşməsi riski ciddi şəkildə artdı. Təxribat Avropada qaz təchizatı ilə bağlı mövcud vəziyyəti kökündən dəyişmək üçün heç nə etməsə də, kritik enerji infrastrukturuna yeni zərbələr endirmək qorxusunu artırdı. Üstəlik, bu həftənin əvvəlinə qədər problemin həll oluna biləcəyi variantı olsa da bu hələlik baş vermədi, əvəzində enerji qiymətləri artdı. Əvvəlki səviyyəsinə qayıdacağı isə mümkün görünmür.

Lakin "Şimal axını" dəniz qaz kəmərini mahiyyət etibarı ilə məhv edən bir sıra partlayışlar onu deməyə əsas verir ki, bu ümidlərin yaxın gələcəkdə özünü doğrultacağını gözləmək olmaz. Əksinə, vəziyyətin daha da pisləşməsi riski artıb. Təxribat səbəbindən Avropada ucuz qazın bir daha olacağını indi heç kim gözləmir. Nəticələr mənfi olacaq, qiymətlər yalnız qaz kəmərinin normal işlədiyi vaxt eyni və ya qismən yüksək ola bilər.

Əvvəllər düşünülürdü ki, Avropa nəhayət Rusiyanın təzyiqinə tab gətirə və sanksiyaları yumşalda və ya hətta ləğv edə bilər. Üstəlik, Rusiyanın nə zaman güzəştə gedəcəyi variantı da istisna edilməmişdi. Ukraynada hadisələr necə inkişaf etsə də, bazarda vəziyyət normallaşacaqdı. Ancaq ən vacib qaz kəməri olmadan bunu etmək daha çətindir. Hələlik dünya bazarlarında qiymətlər Baltik dənizinin dərinliklərindəki "hücuma" sakit reaksiya verib. Natland analitiki Piotr Barton bildirib ki, qaz kəməri artıq bir aydır işləmir və bazar onu qısa müddətdə qiymətə daxil edib və buna görə də çox dəyişməyib. Lakin ekspertin fikrincə, nəticələr uzunmüddətli perspektivdə hiss olunacaq.

Qış üçün Çexiya yaxınlığındakı anbarlar tamamilə qazla doludur və üstəlik, bu ölkəyə Norveçdən və okeanın o tayından qaz gəlir. Əhaliyə satılan qazın qiymətində güzəştlər də ola bilər. Bununla belə, qaz kəmərində yaranan dəlik dövlət büdcəsində kəsirə gətirib çıxaracaq, sonda qazın qiyməti nə qədər baha olsa, onun qiymət tavanı bir o qədər baha olacaq.

İndiyə qədər bazar Rusiya Federasiyasının klapanları sıxmağa davam edəcəyinə ümid edirdi, lakin indi tam hüquqlu tədarüklərə qayıtmaq tamamilə mümkün deyil. Bundan əlavə, enerji infrastrukturuna yeni hücumlar da istisna oluna bilməz. Əgər kimsə dənizin dibindəki boruları partladıbsa, o zaman quruda şəbəkələri sıradan çıxara bilər. "Bu səbəbdən bazarda gərginlik və qiymətlər artacaq.










ANALİZ

## Norveçdən gələn qaz kəməri zədələnərsə, Avropa ciddi böhrandan qaça bilməz

Bazarın bir hissəsi "Şimal axını" qaz kəməri ilə təchizatın bərpa olunacağına və gələn qışda anbarı yenidən doldurmağın mümkün olacağına ümid edirdi. İndi bu seçim getdi. Amma Rusiya Federasiyası qazı yenidən tam həcmdə vermək istəsə, bunun üçün hələ də işləyən iki qaz kəmərindən istifadə edə bilər. Biri Belarusdan, ikincisi isə Ukraynadan keçir.

Maraqlı sual yaranır, Rusiya qazı Avropaya getsə kimə lazım olacaq? Polşanın buna qətiyyən ehtiyacı yoxdur. Çexiya kimi dövlətlərə gəlincə, bu ölkə Qərbdən gələn tədarüklər hesabına ehtiyaclarını ödəyə bilir.

"Şimal axını"na hücumların arxasında kimin dayandığı hələ də bəlli deyil. Qərb mümkün günahkar kimi Rusiya Federasiyasını günahlandırır, Moskva isə Amerika Birləşmiş Ştatlarına işarə edir. Məhz bu iki ölkənin təxribat üçün həm imkanı, həm də səbəbləri var. Onun miqyası terror qruplaşmasının iştirakını istisna edir və ekspertlər hücumun hansısa dövlətin ordusunun iştirakı olmadan baş verməmdiyini ehtimal edirlər.

## Şimal axınında təxribatın pərdəarxası

"Şimal axını"nın hər iki xəttində aşkar edilən qaz sızması və təzyiqin düşməsi nəticəsində Rusiyadan Avropaya mavi yanacağın tədarükü formal olaraq qeyri-mümkün olub. İndi Aİ Rusiya qazından yox, daha bahalı Amerika qazından asılıdır.

"Şimal axını 1" və "Şimal axını 2" qaz kəmərlərində baş verən qəzadan və bu xətlər üzrə Avropaya qaz nəqlinin dayandırılmasından sonra yəqin ki, çoxlarına elə gəldi ki, bu təxribatın arxasında kimin dayanmasından və onun icraçısının kim olmasından asılı olmayaraq, ABŞ günahlandırılacaq. Çünki səbəblər də az deyil. Vaşinqton Rusiyadan Aİ ölkələrinə təzyiq kozırını aradan qaldırmaq üçün bu təxribatı törədə bilər. Bundan əvvəl sanksiyaların ləğvinə nail olmaq və Aİ-ni güzəştə getməyə məcbur etmək üçün də bu üsuldan istifadə edə bilər. Bundan əlavə, qəza ilə demək olar ki, eyni vaxtda üçüncü Baltik Boru Kəməri, yəni Avropa qitəsini və Norveçi birləşdirən iki qaz kəməri üzərində işlər artmağa başlamışdı. Ola bilsin ki, Rusiyanın Avropaya enerji resurslarının tədarükü ilə bağlı kozırlardan məhrum olması ehtimalı daha böyükdür və qəzanın kim tərəfindən törədilə biləcəyinə aydınlıq gətirir. Ola bilsin ki, Avropanın Rusiya enerji daşıyıcılarından asılılığından "narahatlıq" ifadə edən və Rusiyaya alternativ olaraq Avropaya öz maye qazını təklif edən ABŞ bu partlayışların arxasında dayanır. Bəs bu, Avropanın özü üçün nəyisə deyişirmi?

Dünya mediasının "təxribat aktları" adlandırmağa başladığı Baltik dənizində Rusiya qaz kəmərlərində baş vermiş qəzadan bir gün sonra, sentyabrın 27-də daha bir əlamətdar hadisə baş verir. Növbəti "Baltik qaz kəməri"nin açılışı oldu. Baltik dənizinin dibi ilə çəkilmiş Norveç-Polşa xətti istifadəyə verildi. Çoxları da bu iki hadisə arasında əlaqə axtarmağa başladı. Baltic Pipe adlanan qaz kəməri son illərdə Avropa İttifaqına zülm edən Rusiyanın enerji resurslarından asılılığı azaltmaq üçün nəzərdə tutulmuşdu. Bu ümumavropa qaz kəmərinin gücü ildə 10 milyard kubmetrdir. Lakin bu yaxınlarda istifadəyə verilmiş qaz kəmərinin yalnız bu ilin noyabrında, yəni qış mövsümünün lap əvvəlində tam gücü ilə işləyə biləcəyi gözlənilir.

Xatırladaq ki, bu ilin aprelində Polşa Rusiyadan tədarük olunan təbii qazın pulunu rublla ödəməkdən imtina edib və beləliklə, Yamal-Avropa kəməri ilə Rusiyadan əvvəllər aldığı qazı itirib. Onu da xatırladaq ki, açılışına polşalı siyasətçilərin çox sevindiyi Baltik qaz kəmərinin əsas vəzifəsi heç də Polşaya çatdırılma deyil. Daha doğrusu, kəmər daha qlobal Şimal-Cənub Avropa qaz dəhlizinin bir hissəsidir və o, sonrakı mərhələdə Skandinaviya qazını Adriatik və Egey dənizlərinin sahillərində yerləşən Avropa ölkələrinə çatdırmalıdır.

Onu da qeyd etmək maraqlıdır ki, "Şimal axını"na fiziki ziyan (bunun qəza və ya qəsdən törədilmiş təxribat olub-olmaması hələ istintaq tərəfindən göstərilməyib) və Baltik qaz kəmərinin açılışı Rusiya və Avropanın indiki münasibətləri fonunda baş verib. Həm qaz tədarükü, həm də ümumilikdə Ukrayna münaqişəsi üzrə danışıqların əsas qayəsini təşkil edirdi. İndi bu danışıqlar bütün mənasını itirir - Rusiya qaz kəmərləri zədələnib və təmirə ehtiyacı var, Rusiya artıq Avropaya təzyiq vasitəsi olan qaza malik deyil. Rusiyaya qarşı tarixi düşmənçiliyi olan Polşa da bu təzyiqlərdən qismən sığortalanmış olur. Üstəlik, Polşanın Rusiyaya qarşı düşmənçiliyi o qədər güclüdür ki, bəzən onun bu düşmənçiliyində hətta öz maraqlarının zərərinə Rusiyanı daha da pisləşdirmək üçün hərəkət etməyə hazır görünür. İndi isə hətta qaz paylama səlahiyyətlərini öz üzərinə götürsə belə, Polşa çətin ki, müstəqil hərəkət edə bilsin. Çünki bu, onun öz qazı deyil, tranzit qazıdır, ikincisi, artıq qeyd olunduğu kimi, Varşavanın Moskvaya düşmənçiliyi o qədər güclüdür ki, sonuncunu daha da pisləşdirmək fürsəti naminə o, həm özünün, həm də avropalı tərəfdaşlarının zərərinə hərəkət etməyə hazırdır. Şərqi Avropa ölkələri arasında Macarıstan çətin ki, Avropanın "qaz jandarmının" rolunun Rusiyadan Polşaya keçməsindən razı olsun.

Beləliklə, son hadisələrin əsl qalibi həm özünün mayeləşdirilmiş təbii qazının Avropaya ixracının artmasından, həm də Avropa ilə Rusiya arasında davam edən gərginlikdən faydalanan ABŞ-dır. Rusiyanın Avropadakı vəziyyətə təsir imkanları indi faktiki olaraq xeyli azalıb, lakin Avropanın ABŞ-dan asılılığı daha da artır. Avropa isə son hadisələrdən, bəlkə də, mənəvi məmnunluq istisna olmaqla, praktiki olaraq heç bir qazanc əldə etmir. Qazanc Rusiya qazının tədarükündən deyil, daha bahalı Amerika qazının tədarükündən asılıdır. Yeri gəlmişkən, bəzi polşalı siyasətçilər də "Şimal axını"nda təxribatın təşkilatçılarına birmənalı şəkildə "təşəkkür" bildirməyin özlərinə borc biliblər. Halbuki enerji resurslarının çatışmazlığı problemi nəinki aradan qalxmayacaq, əksinə daha da pisləşəcək. Avropalı ekspertlər özləri də etiraf edirlər ki, yeni Baltik qaz kəmərinin potensial imkanları "Şimal axını" ilə müqayisə oluna bilməz. Norveç şelfindən hasil edilən qaz Avropanın daxili tələbatını, hətta sənayesinin ehtiyaclarını ödəməyə belə kifayət etməyəcək. Bu halları nəzərə alsaq, "Şimal axını"nda törədilən təxribatdan kimin faydalana biləcəyi, bu təxribatda kimin təşkilatçı rol oynaya biləcəyi aydın olar.

Qəzanın səbəbləri hələ istintaq tərəfindən müəyyən edilməsə də, bunun təxribat olduğuna artıq şübhə yoxdur. Rusiyanın "Şimal axını" qaz kəməri uzun illərdir etibarlı şəkildə işləyir, Avropa qitəsini fasiləsiz qazla təmin edir, və ondan qazın qəfil buraxılması çətin ki, texniki səbəblərdən heç bir kənar təsir olmadan tikilir.

Avropa "Şimal axını" ilə qaz nəqlindən asılılığını dayandırdığına görə sevinməməlidir. Axı Baltik boru kəməri də təxribatdan immunitetə malik deyil, necə ki, "Şimal axını" onlardan immun deyildi. Və belə bir şey olarsa, Avropa ölkələrinin siyasətinin sonrakı metamorfozalarını izləmək çox maraqlı olacaq.

**V.VƏLİYEV**

# "Ulu Öndər Heydər Əliyev Azərbaycanın qurucusudur"

## Bu mövzuda "Səs" qəzetində dəyirmi masa keçirildi

**"Səs"** qəzetinin redaksiyasında Ulu Öndər Heydər Əliyevin 1993-cü il 3 oktyabr tarixində xalqın dəstəyi ilə Prezident seçilməsinin 29-cu ildönümü və Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev ili" elan olunması ilə bağlı "Ulu Öndər Heydər Əliyev Azərbaycanın qurucusudur" adlı dəyirmi masa keçirildi. Dəyirmi masada Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin Komitə sədri Eldar İbrahimov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Bahar Muradova, Milli Məclisin Komitə sədrinin müavini Jalə Əliyeva, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, professor Amin İsmayılov və Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının fəalı Amin Mamedov iştirak edirdilər.

Dəyirmi masanı giriş sözü ilə açan "Səs" qəzetini baş redaktoru Bəhruz Quliyev ənənəvi olaraq "Səs" qəzetinin ölkəmizin ictimai-siyasi, mədəni həyatında baş verən hadisələrlə bağlı dəyirmi masalar keçirdiyini diqqətə çatdırdı. Növbəti dəyirmi masanın tarixi bir gündə 3 oktyabr 1993-cü il Ulu Öndər Heydər Əliyevin Prezident seçilməsi və Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev ili" elan olunması ilə bağlı keçirildiyini bildirdi. Artıq mütəmadi olaraq Ulu Öndərin 100 illik yubileyi münasibəti ilə silsilə dəyirmi masaların təşkil ediləcəyini qeyd edən baş redaktor bildirdi ki, "Səs" qəzeti olaraq cəmiyyətdə nüfuz sahibi olan bir neçə ziyalının iştirakı ilə Ulu Öndərin Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və formalaşdırılması istiqamətində gördüyü mühüm işlərə bir daha nəzər salmağa qərar verdik. Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, sosial-siyasi həyatda tərəqqinin Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu söylədi: "Ulu Öndər Heydər Əliyev Azərbaycanı bir dövlət, xalqımızı isə bir millət kimi tarixin ağır və sərt sınaqlarından uğurla çıxararaq uzaqgörənliyi, fədakarlığı, müdrikliyi ilə müstəqil dövlətimizin təməlini möhkəmlətdi, ölkəmizin qazandığı bütün uğur və nailiyyətlər, inkişaf və tərəqqi, xalqımızın milli dəyərlərinin qorunması Heydər Əliyev Şəxsiyyətinin bəhrəsidir".





**BƏHRUZ QULİYEV:**

- Ulu Öndərin hakimiyyətə gəldiyi çətin ictimai-siyasi hadisələrlə müşahidə olunduğu o illərin canlı şahidi olmuş dəyirmi masa iştirakçılarının fikirlərini bölüşməsi yaxşı olardı. Eldar müəllim, o illərdə, Azərbaycanda baş verən hadisələri, qarşıdurmaları necə xarakterizə edərdiniz?

### ULU ÖNDƏR HƏMİŞƏ XALQLA BİRGƏ OLDUĞUNU, ONUN TALEYİ İLƏ YAŞADIĞINI TARİXİ XİDMƏTLƏRİ İLƏ SÜBUT ETMİŞDİR



**ELDAR İBRAHİMOV:**

- Ümummilli Lider Heydər Əliyevin istər sovet məkanında yaşadığımız illərdə - 1969-cu ildən başlayaraq, Azərbaycanın Birinci Katibi vəzifəsində çalışdığı zamanda, istərsə də 1993-cü ildə hakimiyyətə qayıdışından sonra müstəqil Azərbaycanın ictimai-siyasi və mədəni həyatında baş verən dönüş, inkişaf, eləcə də, ölkəmizin dünya məkanında özünəməxsus yer tutması Onun məqsədyönlü fəaliyyətinin məntiqi nəticəsidir. Heydər Əliyev 1993-cü ildə ölkəmizdə siyasi böhran yaşandığı, vətəndaş müharibəsi təhlükəsi yarandığı, Ermənistanın təcavüzünün gücləndiyi bir vaxtda siyasi hakimiyyətə qayıdaraq, Azərbaycanda ictimai-siyasi sabitliyin yaradılması üçün ciddi və təxirəsalınmaz addımlar atdı. Ulu Öndər ölkədə ictimai-siyasi, iqtisadi sabitliyin yaradılmasına uzaqgörən, məqsədyönlü siyasəti ilə nail oldu. Bütün mənalı ömrünü Azərbaycan xalqının tərəqqisinə həsr etmiş Ulu Öndər Heydər Əliyev özünün əməli fəaliyyəti ilə doğma xalqının əbədi məhəbbətini qazanaraq əsl Ümummilli Liderə çevrilmişdir. Ulu Öndər həmişə xalqla birgə olduğunu, onun taleyi ilə yaşadığını tarixi xidmətləri ilə sübut etmişdir. 1990-cı illərin əvvəlləri Azərbaycan dövrünün ağır günlərini yaşayırdı. Bir tərəfdən, separatçı qüvvələr və onların himayədarları ölkəmizi parçalayır, digər tərəfdən, iqtisadiyyatımız tamamilə dağılmışdır. Müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan və bir-birini əvəz edən səriştəsiz siyasi qüvvələr respublikadakı vəziyyəti daha da ağırlaşdıraraq təhlükəli böhran vəziyyətinə çatdırmışdılar. Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Xalqı bütövlükdə, uçuruma sürükləyən məqamlar istər ölkə daxilində, istərsə də xaricində onun sütunlarını zəiflətməyə başlamışdı. İqtisadiyyatımız böhranlı vəziyyətə gəlib çatmış, işsizlik, demək olar ki, kütləvi hal almışdı.

3 sentyabr müstəqil Azərbaycanın tarixində ən əsas və önəmli yerlərdən biridir, Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinə sədr seçilməsəydi, Naxçıvan və Azərbaycanın gələcək taleyi hələ də müəmmalı idi. 1990-cı il iyul ayının 22-də Heydər Əliyevin Naxçıvana gəlməsi, elə həmin ilin noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında, ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş Azərbaycan milli bayrağının qaldırılması böyük hadisə idi. Azərbaycanda olan mərkəzi komitənin rəhbərləri Heydər Əliyevin hakimiyyətə gəlməsindən çox narahat idilər. Ancaq Azərbaycan xalqının Heydər Əliyevə ehtiyacı var idi. 1991-ci ilin 17 mart tarixində Azərbaycanda SSRİ-nin hakimiyyətdə saxlanılmasına dair referendum keçirildi. Biz Naxçıvan əhalisi olaraq həmin referendumda iştirak etmədik. "Demblok", "komblok" deyilən qüvvələr və bu qəbildən olan digərləri Naxçıvanda, necə deyərlər, öz adamlarını hakimiyyətə gətirmək üçün müxtəlif vasitələrə əl atırdılar. Belə gərgin vəziyyətdə muxtar respublikanın gələcəyini düşünən insanlar Ali Məclisin sədri vəzifəsinə böyük idarəçilik təcrübəsi olan Heydər Əliyevin seçilməsini tələb edirdilər.Mən yaxşı xatırlayıram, respublikamızda torpaq islahatına, məhz Naxçıvanda 1992-ci ilin mart ayında start verildi, özəlləşdirmə aparıldı. Beynəlxalq miqyasda böyük nüfuza malik olan Heydər Əliyev İran və Türkiyə ilə əlaqə saxladı. İstər İrandan, istərsə də Türkiyədən Naxçıvana yardımlar gəlməyə başladı. Ulu Öndər 1991-1993-cü illərdə Naxçıvanı, Muxtar Respublikanın əhalisini bu yardımlar hesabına saxladı. 1992-ci ilin oktyabr ayının 16-da "Səs" qəzetində 91 nəfər qabaqcıl vətənpərvər ziyalının müraciəti dərc olundu. Həmin ilin oktyabr ayının 24-də Heydər Əliyev "Səs" qəzeti vasitəsilə 91 nəfərin müraciətinə cavab verdi. Ziyalıların Heydər Əliyevə müraciəti və partiya yaratmağa cəlb edilməsi, Onun ziyalılara müsbət cavabı o dövrün əhəmiyyətli hadisələrindən biridir. Heydər Əliyev qısa müddət ərzində Azərbaycanı irəli çəkdi və artıq Azərbaycanı tanımağa başladılar. Bu gün Azərbaycan Ulu Öndərin ideyalarından nur alaraq gələcəyə doğru inamla addımlayır. Ölkəmiz demokratiya, hüquqi dövlət quruculuğu yolu ilə irəlilədi, xalq birliyi yarandı. Azərbaycan cəmiyyətində dövlətçilik ideyalarının bərqərar olması fundamental mahiyyət kəsb etməyə başladı.

**BƏHRUZ QULİYEV:**

- Ötən əsrin 90-cı illərin əvvəllərində ictimai-siyasi böhran vəziyyəti yaranmaqla yanaşı, bizim milli-mənəvi dəyərlərimizə, ailə dəyərlərinə böyük zərbə vurulmuşdur. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı, 3 oktyabr tarixində Prezident seçilməsi milli-mənəvi dəyərlərimizin qorunmasında müstəsna rol oynamışdır.

### SANKİ HƏR KƏS SAHİLİ GÖRÜNMƏYƏN BİR DƏRYADA KÖHNƏ BİR GƏMİDƏ ÇALXALANIRDI

**BAHAR MURADOVA:**

- Bu gün geriyə dönüb baxdıqda nə qədər böyük yol keçdiyimizi bir daha dərk edirik. Həmin günlərdən uzaqlaşdıqca bunun miqyası daha da böyüyür. Ulu Öndər Heydər Əliyevin işığı və nuru dünyanın hər yerindən görünür. Düşünürəm ki, Ümummilli Lider Heydər Əliyev haqqında Azərbaycan kontekstində danışmaq doğru olmaz. Region üçün Heydər Əliyevin əhəmiyyəti daha qabarıq görünür. Ümumilikdə beynəlxalq proseslərdə Heydər Əliyevin yeri və rolunu, Azərbaycanın rəhbəri qismində ölkəmizin dünyada rolunun artırılması məqamlarını xüsusi vurğulamaq lazımdır.

Həmin dövrlərdə müstəqillik uğrunda ilkin addımların atılmasına baxmayaraq, dövlət olaraq əsl mənada müstəqilliyin tələb etdiyi vəzifələri yerinə yetirməli idik. Azərbaycanın minilliklərə söykənən tarixi, milli-mənəvi dəyərləri qorunmalı və yeni dövrə uyğun istiqamətdə addımlar atılmalı idi. Amma bütün bunlar xaos girdabına düşmüşdü. Sanki hər kəs sahili görünməyən bir dəryada köhnə bir gəmidə çalxalanırdı. Biz həmin dövrdə həqiqətən də, müstəqil və azad, öz vətəndaşını rifah içərisində saxlamağa malik və qürurlu bir ölkənin vətəndaşı olmaq istəyirdik. Tarix bizim qarşımıza bir şans çıxartmışdı. Bu şansı düzgün dəyərləndirmək əvəzinə, Azərbaycanı daxili siyasi mübarizələrin alətinə və xarici təcavüzə açıq bir ölkəyə gətirmişdilər. Ona görə də, gənclik də o zamanın düşünən aydınlarının müəyyən etdiyi yolla getmək qərarı vermişdi. Yüzlərlə, minlərlə Azərbaycan gənci Azərbaycanın əsl mənadakı müstəqilliyini təmin etmək istiqamətindəki fəaliyyəti həyata keçirmək üçün



gedəcək prosesin başında Heydər Əliyevi gördü. Azərbaycan müstəqil bir dövlət idi. Bizim demokratik ənənələrimiz, dövlət qurmaq ənənələrimiz var idi. Bütün bunlar ola-ola biz ümumilikdə Azərbaycanı sonu görünməyən burulğana çəkənlərin qarşısında durmalı idik. Naxçıvanda xalqın bütün nümayəndələri hər kəs Heydər Əliyevin arxasında idi. Bunun özü müstəqil dövlətin necə qurulmasını, xalqın hansı addımı atmağının bariz nümunəsi idi. İstənilən təzyiqə qarşı dayanmaq lazım idi. Həmin dövrdə milyonlarla imzalar göndərilmişdi ki, Heydər Əliyev hakimiyyətə gəlsin. Böyük səs çoxluğuyla Heydər Əliyev Prezident seçildi. Bu gün vahid, müstəqil dövlət qurmaq ideyası ətrafında vahid bir cəbhədə birləşən öz Liderinə, öz ideoloji xəttinə sahib Azərbaycan xalqının birliyinin gücüdür. Heydər Əliyev andiçmə mərasimində söz verdi ki, Azərbaycan dövlətinin rifahı üçün çalışacaq. Bu gün o vəzifə tam mənada yerinə yetirilib. Azərbaycan regionun, dünyanın aparıcı güclü, siyasi amillərindən biridir. Bu gün dünya siyasətini Azərbaycansız təsəvvür etmək mümkün deyil.

## ƏGƏR BİZ BU GÜN VARIQSA, DÖVLƏTİMİZ VARSA, DÖVLƏTÇİLİYİMİZ VARSA BÜTÜN BUNLARA GÖRƏ, BİZ ULU ÖNDƏRƏ BORCLUYUQ

**JALƏ ƏLİYEVA:**



- Ulu Öndər doğulduğu gündən etibarən, öz hərəkətləri, əməlləri, sözləri ilə örnək olan və arxasınca böyük bir xalqı aparmaq qabiliyyətinə malik olan bir şəxsiyyətdir. Həqiqətən də Ulu Öndər Azərbaycanın sahibi kimi onu qorudu, arxa oldu. Heydər Əliyevin xalqın istəyi ilə ikinci dəfə hakimiyyətə gəlməsi elə bir dövrə təsadüf edirdi ki, ölkə ölüm və ya qalıb sualı qarşısında qalmışdı. Azərbaycan şimaldan, cənubdan parçalanıb tamamilə yox edilmək təhlükəsi ilə qarşılaşmışdı. Ölkə vətəndaş müharibəsi ilə üz-üzə idi, ölkə daxilində xaos yaranmışdı. Büdcə tamamilə məhv olmuşdu, vahid ordu yox idi, iqtisadiyyat, sənaye məhv olmuşdu. Ümumiyyətlə, vətəndaş münasibətləri sıfır həddə çatmışdı. Belə bir dövrdə Heydər Əliyev hakimiyyəti ələ aldı və Azərbaycan xalqını yox olmaq təhlükəsindən xilas etdi. Bizim hər birimiz onun qarşısında borcluyuq. Əgər biz bu gün varıqsa, dövlətimiz varsa, dövlətçiliyimiz varsa bütün bunlara görə, biz Ulu Öndərə borcluyuq. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin Sərəncamı ilə 2023-cü il "Heydər Əliyev" ili elan edilməşdir. Bununla bağlı ölkəmizdə böyük tədbirlər həyata keçiriləcək. Heydər Əliyevin hakimiyyəti, rəhbərliyi heç bir hakimiyyətə bənzəmir. Bunu sadəcə biz yox, bütün dünya ölkələrinin rəhbərləri bildiriblər. Sözün əsl mənasında ancaq siyasətimizi, xalqımızı, dövlətimizi düşünən bir Şəxsiyyət idi. Bu gün onun irsini qoruyuruq, onu olduğu kimi gələcək nəsillərə çatdırmaq bizim borcumuzdur.

## ANALOQU OLMAYAN MÜHARİBƏ STRATEGİYASINI CƏNAB PREZİDENT İLHAM ƏLİYEV HƏYATA KEÇİRDİ

**AMİN İSMAYILOV:**

- Bu gün biz çox əlamətdar bir gündə toplaşmışıq. Dünyada ilahi ədalət deyilən bir anlayış var. Biz Ulu Öndərin yüz illiyinə Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünü və Şuşanı hədiyyə etdik. Cənab Prezident əbəs yerə demədi ki, ata nəsihətini yerinə yetirmək böyük xoşbəxtlikdir. Sözün həqiqi mənasında, bu, fövqəladə bir hadisədir. Hamı bilir ki, Heydər Əliyev üçün dövlətin mənafeyi və ölkənin müstəqilliyi və ərazi bütövlüyü mühüm mənə kəsb edirdi. Heydər Əliyev yolagəlməz, ipəyatmaz insanların tüğyan etdiyi bir zamanda öz sağlamlığı hesabına xalqına görə bütün ömrünü fəda etdi. 1993-cü il 3 oktyabr tarixində Ulu Öndər hakimiyyətə gəlməsəydi, necə olacaqdı? Bu gün möhtərəm Prezidentimiz bütün ölkə başçıları arasında sayılıb seçilir. Hazırda ölkəmizdə qısqanclıq var. 44 günlük Vətən müharibəsi zamanı hər kəs bir Liderin ətrafında birləşdi. Keçmiş zamanlarda insanlar küçə ilə gedəndə onun fikrini öyrənmədən tutub, cəbhəyə göndərirdilər. Mən şəhidlərimizin qarşısında baş əyirəm. Allah şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı versin. Bizim igidlərimiz Liderimizə inanaraq Şuşa qalasını fəth etdilər. Analoqu olmayan müharibə strategiyasını Cənab Prezident İlham Əliyev həyata keçirdi. Möhtərəm Prezidentdə dövlət atributlarına qarşı o qədər sevgi var ki, həmin o sevgi artıq bizim gənclərimizdə də, formalaşıb. Azərbaycan milləti şanslıdır ki, Heydər Əliyev kimi bir dövlət başçısı var.



## ÜMUMMİLLİ LİDERİN BİZƏ AŞILADIĞI MƏRDLİK, CƏSARƏT VƏ VƏTƏNƏ SEVGİ BÜTÜN GƏNCLƏRİN DAMARINDA DOLAŞIR

**AMİN MAMEDOV:**

- Bütün bu danışıqlar onu göstərir ki, həmin dövrün gənclərinin də Ulu Öndər Heydər Əliyevə böyük inamı olub. Yəni, Ulu Öndərə olan sevgi və diqqət hər zaman olub. Ümummilli Liderin Onun bizə aşıladığı mərdlik, cəsarət və vətənə sevgi bütün gənclərin damarında dolaşır. Bu sevgi Vətən müharibəsi zamanı daha da qabarıq özünü göstərdi. Bu gün Azərbaycan dövləti və ordusu həyat etibarilə daha çox gənclərdən təşkil olunub. Bizim ordumuz zəfər qazanmış bir ordudur. Biz ordumuzun qazandığı uğurları hər gün izləyir və sevinirik. Müasir gəncliyin belə formalaşmasında Ulu Öndər Heydər Əliyevin misilsiz rolu var. Ulu Öndər və Onun davamçısı Azərbaycan Prezidenti İlham Əliyevin gənclərə olan diqqət-qayğısı daim göz özündədir. Biz bu gün fəxr edirik ki, rəhbərimiz Cənab İlham Əliyevdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Yeni reallıqlar fonunda Azərbaycan qazına tələbat durmadan artır"



"Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu Azərbaycanın enerji strategiyası görülən effektli işlər, həyata keçirilən nəhəng layihələr, qəbul olunan mühüm qərarlar sayəsində dünyanın diqqət mərkəzindədir. Bu gün ölkəmiz enerji potensialını düzgün qiymətləndirərək çoxşaxəli enerji siyasəti ilə regional və qlobal əhəmiyyətli aktora çevrilib. Həmçinin ölkəmizin durmadan artan iqtisadi qüdrəti, regionda lider dövlət statusuna sahib olması, beynəlxalq təşəbbüsləri, reallaşdırdığı faydalı layihələr onun beynəlxalq nüfuzunu xeyli artırıb. Artıq beynəlxalq aləm bu gün dərindən anlayır ki, Azərbaycan dünya üçün nə qədər əhəmiyyətli və potensialı yüksək olan ölkədir. Əsasən neft-qaz mənbələrindən asılı olan Avropa regionu ölkələri enerji təhlükəsizliyi baxımından Azərbaycanla əməkdaşlığa böyük üstünlük verirlər". Bu fikirləri SİA-ya açıqlamasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.

Onun sözlərinə görə, Prezident İlham Əliyevin uğurlu enerji siyasəti ölkəmizi regionda böyük enerji mərkəzinə çevrib. Demək olar ki, bu sahədə Azərbaycanla əməkdaşlıq etmək istəyən dövlətlərin sayı durmadan artır və Azərbaycan qazının Avropa bazarında satış dairəsi genişlənir: "Oktyabrın 1-də Bolqarıstanın paytaxtı Sofiya şəhərində dövlətimizin başçısı cənab İlham Əliyevin iştirakı ilə açılışı baş tutan Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektoru Azərbaycan təbii qazını Bolqarıstana çatdıracaq və bu ölkənin tələbatının 25-30 faizini ödəyəcək. Aydın görünür ki, yeni reallıqlar fonunda Azərbaycan qazına tələbat durmadan artır və ölkəmiz Türkiyə, Gürcüstan, Yunanıstan, Albaniya və İtaliya kimi ölkələrin qaz təchizatında önəmli rol oynayır və bu sıraya artıq Bolqarıstan da daxil oldu. Bolqarıstan Prezidenti cənab Rumen Radev mətbuata bəyanatında açıqladı ki, Rumınıya, Macarıstan və Slovakiya əlavə qaz həcmini almaq və nəql etmək istəyindədirlər. Bu, onu göstərir ki, Mərkəzi, Qərbi və Cənubi Avropa ölkələri üzləşdikləri enerji böhranından xilas yolunu bu sahədə Azərbaycanla əməkdaşlıqda görürlər. Açılış mərasimində səslənən fikirlərdən də göründü ki, ölkəmizin etibarlı tərəfdaş olduğu hər zaman təqdir olunur və təbii ki, əməkdaşlıqda bu məsələ son dərəcə vacib amildir. Dövlətimiz atdığı hər bir imzasına hörmətlə yanaşıb, enerji ixracına başladığı gündən indiyə kimi təchizatda heç bir gecikmə olmayıb, müqavilə şərtləri dəyişməyib, bir sözlə, Azərbaycan öz öhdəliklərinə sadiqlik nümayiş etdirərək vəzifələrini vicdanla icra edib".

"Ölkəmiz 2027-ci ilə qədər təbii qazın təchizat həcmini iki dəfə artırmaq niyyətindədir, həmçinin Avropanın elektrik enerjisi ilə təchizi məsələsi də gündəmdədir. İnanırıq ki, yaxın gələcəkdə Azərbaycan qoca qitənin elektirik enerjisi ilə təchizatında mühüm ölkələrdən birinə çevriləcək. Və bütün bunlar ölkəmizin beynəlxalq mövqelərinin möhkəmlənməsinə, valyuta ehtiyatlarının, büdcə gəlirlərinin artmasına, iqtisadi imkanlarının genişlənməsinə gətirib çıxaracaq", - Milli Məclisin deputatı deyib.

***Banuçiçək Hüseynli***



# "Heydər Əliyev Azərbaycanın inkişafının açarını tapdı"

"Azərbaycan Resplikasının Prezidenti İlham Əliyevin 2023-cü ili "Heydər Əliyev ili" elan etməsi müstəsna tarixi əhəmiyyət daşıyır". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Musa Qasımlı bildirib. Onun sözlərinə görə, bu, həm milli dövlətçilik, həm də millətimizin milli-mənəvi dəyərləri və gələcək inkişafı baxımından vacibdir: "Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur. XX əsrin 70-ci illərində Azərbaycana rəhbərlik edən zaman müstəqilliyin maddi təməllərini hazırlayıb. Sovet sistemi şəraitində Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunması üzrə böyük işlər görüb. Milli-hərbçi kadrlar yetişdirilib, tarixi və mədəniyyət abidələrimiz qorunub.

1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi əldə olunsa da Azərbaycanda xaos və anarxiya hökm sürürdü. 1993-cü ilin yayında ölkə ümumi böhrana düşdü. Bu böhran millətin milli-psixoloji böhranı idi. Sabaha ümid yox idi. Bununla paralel olaraq erməni təcavüzkarları Azərbaycan ərazilərinə işğalları genişləndirirdi. Belə bir şəraitdə millət Heydər Əliyevi hakimiyyətdə görmək istəyirdi. Heydər Əliyev Gəncədə baş vermiş qiyama əliyalın getdi. 1993-cü il iyunun 15-də parlamentin sədri seçildi və bundan sonra bütün dövlət quruculuğu işlərində vacib dəyişikliklər oldu. Heydər Əliyev Azərbaycanın inkişafının açarını tapdı. Bu, neft oldu. Təbii sərvətimiz olan nefti milli sərvətimizə çevirdi. Bu gün Azərbaycanda olan bir çox şeyin təməlini Ulu Öndər qoyub. Dövlət çevrilişlərinin, qiyamların qarşısı alındı. Onun uzaqgörənliyi sayəsində bu gün Azərbaycanı bütün dünya ölkələri tanıyır. Düşünürəm ki, 2023-cü ildə "Heydər Əliyev ili" ilə bağlı çox vacib konfranslar, tədbirlər keçiriləcək. Onunla bağlı sənədli filmlər çəkiləcək. Azərbaycan dövləti və milləti var olduqca Heydər Əliyev də yaşayacaq".

***Abutel İlhamqızı***

# "2023-cü ilin "Heydər Əliyev ili" elan olunması xalqımız üçün önəmli hadisədir"

"2023-cü ilin "Heydər Əliyev ili" elan olunması həm dövlətimiz, həm də xalqımız üçün kifayət qədər önəmli hadisədir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Aytən Qurbanova deyib. Onun sözlərinə görə, Ulu Öndərin həyatının hər anı böyük diplomatiya məktəbidir və müasir Azərbaycanın bütün uğurlarında onun müdrik siyasətinin izləri var: "Təəssüflər olsun ki, Ulu Öndər torpaqlarımızın işğaldan azad olunduğu günləri görmədi. Amma o bu Zəfəri bizlərin görəcəyinə əmin idi. Çünki çox sevdiyi Azərbaycanın özü qədər inandığı insanın - Prezident İlham Əliyevin rəhbərliyi dövründə bütün məqsədlərinə bir-bir nail olacağını bilirdi. Ona görə də, 2023-cü ildə onun anadan olmasının 100 illiyi ilə bağlı tədbirlərin azad Qarabağın da daxil olduğu bütöv Azərbaycan ərazisində keçirilməsi bütün ömrü boyu Azərbaycanın işıqlı gələcəyi üçün çalışmış Ulu Öndərin ruhunu şad edəcəkdir. Amma onu da unutmayaq ki, Azərbaycan xalqı sadəcə bu il deyil, hər zaman onun əziz xatirəsini sonsuz şükran və minnətdarlıqla yad edir və edəcək".



# Ermənistanın Qərbə münasibətdə "üzü" və Rusiyaya münasibətdə "arxası"

**Ermənistan arxasını Rusiyaya, üzünü isə guya Qərbə çevirir. Əslində isə yenə də öz mövqesizliyini ortaya qoyur. Ortada olan odur ki, Ermənistan hələ də hansı müstəvidə olduğunu özü də təyin edə bilməyib. Bu işğalçı ölkə tarix boyu arxalandığı tərəfə indi arxa çevirir və həmin tərəfi satmağı, ona xəyanət etməyi məqbul hesab edir, hansı ki, bunu bütün dünya görür, müşahidə edir. Müşahidələr isə onu deməyə əsas verir ki, Ermənistana etibar edilən deyil və heç şübhəsiz ki, bunu Qərb də yaxşı başa düşür.**

Guya ki, Ermənistan seçim edir, Rusiyaya üz yox, arxa çevirir və Qərbə meyilli olduğunu nümayiş etdirir. Əslində isə, bu zamana qədər ayaqda qaldıqlarına, dövlət, ölkə olaraq mövcud olduqlarına görə borclu olduqları Rusiyaya, ruslara xəyanət edir. Bunun da ruslar artıq çoxdan fərqindədirlər. Bu isə o deməkdir ki, Ermənistanın bundan sonra Rusiyaya bel bağlaması, ruslara ümid etməsi mümkünsüzdür, çünki simasızlıqları, xəyanətkar olduqları bu zamana qədər dəfələrlə öz təsdiqini tapıb və yenə də öz təsdiqini tapmaqdadır.

Tarix boyu arxa bildiyi dövlətlərə, ölkələrə xəyanət etməyi ənənə halına çevirən Ermənistan üçün belə bir dönüklük adi hal hesab oluna bilər, amma dünya üçün qəbul edilən, anlaşılan deyil. Bu işğalçı ölkənin digər ölkələrlə, ələlxüsus türkdilli dövlətlərlə kəskin fərqi var və bu sirr deyil ki, ermənilər etibarsızlıqları ilə tanınırlar. Uzun zaman mövcudluqlarına görə borclu olduqları Osmanlını dərhal Rusiyaya satan ermənilərin indi Rusiyanı Qərbə satması gözlənilən idi, çünki bu, elə bir xislətdir ki, nə zamansa bir daha təkrarlanması gözlənilən hesab olunur.

Hər zaman ermənilərin dırnaqarası şəkildə "fərqli" olduqları özünü biruzə verib və əslində, özlərini erməni adlandıran haylar heç zaman müstəqil olmayıblar və kimlərinsə təsiri, himayəsi altında yaşamağa alışıblar. Sonuncu dəfə Qafqaza köçürülən və indi özlərini xalq olaraq elan edənlər bu ərazilərdə yad olduqlarını dəfələrlə sübut ediblər, necə ki, indi də Qərbə yaltaqlanmaqla bunu sübut etməkdədirlər. Yenə də təsdiqlənir ki, ermənilər kimlərinsə himayısinə sığınmağa çalışırlar və hələ də arxalandıqlarını satmaq ənənələrnə sadiqdirlər.

Rusiyanın hal-hazırda Ukrayna ilə müharibəsi, eləcə də Qərbin həmin ölkəyə tətbiq etdiyi sanksiyalar fonunda rusların başlarının özlərinə qarışdığı göz önündədir. Çünki həqiqətən də Rusiya ən azından iqtisadi baxımdan çətinliklərlə qarşılaşıb. Geosiyasi müstəvidə belə Rusiya hələ də çətinliklər qarşısındadır və ermənilərin fikrincə ruslar artıq heç bir gücə, qüvvəyə sahib deyillər və ona görə də Rusiyadan imtina etmək, onilliklər boyu sığındıqları, yaltaqlandıqları ölkəyə arxa çevirmək, ona dönük çıxmaq və Qərbə satmaq indi Ermənistan üçün vacib hesab olunur. Beləliklə də Qərbə yaltaqlanaraq yeni bir himayədar qazanmaq ermənilər üçün ön plandadır.

Digər dövlətlərlə, region ölkələri ilə, ələlxüsus Azərbaycanla bu işğalçı ölkənin fərqi çoxdur. Humanizm prinsipləri, tolerantlığı ilə seçilən Azərbaycan heç zaman, heç bir rakursda Ermənistanla müqaisəyə gələ bilməz və müqaisə etmək fikrimiz də yoxdur. Amma bir məsələ əsrlər boyu öz təsdiqini tapıb ki, ermənilər hər zaman özlərinə daha güclü himayədar axtarıblar, daha qüvvətli tərəfə yaltaqlanmaq üçün əldən-ayaqdan gediblər və bu xislət hələ də özünü göstərir. Yenə də daha güclü bildiklərinə tərəf getmək, guya onlara üz çevirmək istədiklərini bəyan edirlə, amma unudurlar ki, niyyətlərinin nə olduğunu bilməyən yoxdur. Qərb də yaxşı bilir ki, istənilən anda ermənilər üz döndərə, arxa çevirə bilərlər. Bu xislətlərinə biz özümüz də, Azərbaycan xalqı da bələddir və onilliklər boyu azərbaycanlıların süfrəsini üzlərinə açmalarına baxmayaraq, sonda xəyanət yolunu tutduqları bəlli oldu. Bəlli oldu ki, bizim qonaqpərvərliyimizin, tolerantlığımızın müqabilində qəlblərində böyük kin saxlanıb və bu kin özünü Azərbaycanın ən çətin, keşməkeşli dövrundə, müstəqilliyini yenicə bərpa etdiyi dövrdə biruzə verdi və ölkəmizin həmin dövrdə çətin durumundan istifadə edən ermənilər namərd xislətlərini ortaya qoyaraq, bizə qarşı işğalçılıq siyasətlərini bir də yürütməyə başladılar. Rusiyanın gücünə arxalanan Ermənistan, onun potensialından, imkanlarından istifadə edərək xainliyini göstərdi, torpaqlarımızı işğal etdi, soydaşlarımıza qarşı soyqırım siyasəti yürütdü, bütün bəşəri cinayətlərə əl atdı. Sual oluna bilər ki, bəs indi nə oldu və indi niyə Rusiya düşmən ölkə hesab olundu və indi niyə böyük qardaş adlandırdıqları düşmən sayılır?

Ermənistana məxsus mətbuat səhifələrində Rusiyanın, rusların onları müharibə zamanı müdafiə etmədikləri barədə dəfələrlə bəyan etdikləri ilə rastlaşırıq. Görürük ki, ermənilər rusların onlara müharibə zamanı nəinki kömək edəcəklərini gözləyirdilər, elə hesab edirdilərmiş ki, onların əvəzinə ruslar döyüşəcəklərmiş. Utanmadan kömək umurlar ruslardan və bu zamana qədər pulsuz-parasız aldıqları silahların yararsız olduğunu iddia edirlər. Maraqlıdır, əvvəla niyə ruslar ermənilərə pulsuz silah verməli idilər? Digər tərəfdən pulsuz olan silahlar necə olmalı idi? Bunu da dərk etməyənlər və hələ də rusları özlərinə borclu bilənlər indi dallarını onlara, üzlərini də onların düşməni sayılan Qərbə çevirirlər. Bu isə Qərbə və Rusiyaya münasibətdə Ermənistanın üzü və dalı barədə fikir formalaşdırır.

Maraqlı olan məqamlardan biri də odur ki, ermənilər hələ də başa düşə bilmirlər ki, onlar heç kimə lazım deyillər. Bu ölkənin hansısa dövlətə, hansısa ölkəyə, hansısa tərəfə faydası yoxdur. Ermənistan nə olmayan yeraltı sərvəti ilə, nə olmayan hərhansı istehsal sahəsi ilə hansısa dövlət üçün maraqlı ola bilməz, çünki istehsal belə yoxdur, bu ölkə yalnız işğalçılıq siyasəti yürüdülür. Ola bilsin ki, bu zamana qədər Rusiya onlardan, ermənilərdən "maşa" kimi istifadə edib və qabaqlarına atılan "pay" da bunun müqabilində olub, amma artıq reallıqlar dəyişib və Avropanın enerji təhlükəsizliyini təmin edən Azərbaycanla müqaisədə həmin bu "maşa" nəzərə belə alınmır. Məhz bu baxımdan da Rusiya artıq nəzərini Ermənistanın, ermənilərin üzərindən götürüb və onlar da bunu dərk etdikləri üçün özlərinə yeni ağa axtarmaq məqsədilə əldən-ayaqdan gedirlər. Əslində, Ermənistanın kimə üzünü və kimə dalını çevirməsi heç kim üçün fərq etmir, sadəcə bu, həmin ölkənin üzünün dalı ilə fərqinin olmadığını göstərir, çünki bunların bir-birinə çevrilməsi dərhal baş verən prosesdir və bunu tarix boyu bütün dünya görüb.

İşğalçı ölkənin bu simasızlıqlarının fonunda Azərbaycan Prezidenti Bolqarıstana, Gürcüstana səfər edir, orada ölkə başçımızın ünvanına çoxlu xoş sözlər deyilir, gələcək əməkdaşlıqlar barədə vədlər verilir. İndi Avropanın neftə, qaza, elektrik enerjisinə ehtiyacı var, ermənilərin özlərinə qondarma "vətən" qazanmaları üçün işğalçılıq siyasətinə yox. Ölkə rəhbərimiz neft, qaz, elektrik enerjisi ilə Avropa ölkələrini təmin edəcəyi barədə bəyan etdiyi vaxt Ermənistan hakimiyyəti özünə yeni ağa axtarır. Ermənilər utanmadan bəyan edirlər ki, Rusiya və KTMT-nin fəaliyyətsizliyi fonunda Nikol Paşinyan nəhayət, bu vəziyyətdə guya çətin, lakin zəruri seçim edib, halbuki bu seçim yox, mövqesizlik və simasızlıqdır, hansıki Qərbə və Rusiyaya münasibətdə Ermənistanın üzünün və dalının bir-birinə tez çevrilə bildiyi ilə öz təsdiqini tapır.

Nikol Paşinyan Ermənistana göndərilən KTMT-nin baş katibi Stanislav Zası qəbul etmədəm ABŞ-a uçdu və orada da NATO-nun baş katibi Stoltenberq olmaqla, guya bir sıra mühüm görüşlər keçirdi. Ermənistanın müdafiə nazirinin və Təhlükəsizlik Şurası katibinin ABŞ-a səfərləri, Nensi Pelosinin işğalçı ölkəyə səfəri bir zəncirin halqalarıdır. Bütün bunlar göstərmə xarakteri daşıyır və bunların heç bir mənası da yoxdur. Çünki Nensi Pelosinin səfəri də, vəd etdikləri də, uyğunsuz fikirləri də Ermənistan üçün hansısa divident belə demək deyil və indi bu ölkənin baş nazirinin çabaları da bunu təsdir edir.

Moskvanın ünvanına ciddi ittihamlar səsləndirən Paşinyanın hərəkətlərinin yenə də daxili auditoriyaya hesablandığı bəllidir. O, iddia edir ki, Ermənistan hər zaman Rusiyanın müttəfiqi kimi üzərinə götürdüyü öhdəlikləri sədaqətlə yerinə yetirib. Maraqlıdır, söhbət hansı öhdəliklərdən gedir? Ermənistan Rusiya üçün nə kimi rol oynaya bilər? Ümumiyyətlə, təxribatçılıqlar, qarmaqarışıqlıqlar istisna olmaqla, Rusiyanın bu ölkədən gördüyü nədir axı? Belə olan halda, Nikolun dedikləri yalnız erməniləri, xüsusilə də öz ölkəsinin müxalifətini sakitləşdirmək üçündür. Həm də erməni baş nazir onu hakimiyyət kreslosuna oturdan Qərbə bir də yaltaqlanır ki, yenə də hansısa divident əldə etsin, amma çox gecdir. Paşinyan Qərbə üzünü, Rusiyaya dalını çevirsə də, gedib rusların düşmənlərinin ayaqlarına sərilsə də nəyə isə nail ola bilməyəcək. Əvvəla ona görə ki, Qərbin özünün də eyni ilə Rusiya kimi başı qarışıqdır, digər tərəfdən də hansı maraqlar Qərb ölkələrini innən belə buna sövq edə bilər axı?

Təbii ki, Qərbə doğru geosiyasi dönüşün Ermənistan üçün son dərəcə təhlükəli olduğu barədə heç kim, heç ermənilərin özləri də mübahisə etmirlər. Hamı yaxşı bilir ki, Rusiya MDB ölkələrini, xüsusilə Ermənistanı əzmlə öz orbitində saxlamağa çalışır və buna nail olmaq üçün əlindən gələni əsirgəməz. Rusiyanın "qucağından" qurtulmaq istəyən Ermənistanı hansı güc, hansı aqressiya gözlədiyini ermənilər özləri hamıdan yaxşı bilirlər. Yaxşı bilirlər ki, Ermənistanın xarici siyasət istiqamətlərinə guya yenidən baxılması Kremldə mütləq hədsiz dərəcədə ağrılı qarşılanacaq və bunun əvəzi də, qarşılığı da olacaq. Paşinyanın komandası da bunu yaxşı başa düşür. Paşinyan hakimiyyətinin ABŞ-la təhlükəsizlik zəmanətləri ilə bağlı danışıqları intensivləşdirməyə can atması da təsadüfi deyil və qorxularının təzahürüdür, çünki üzlərinin dallarına çevrilməsinin acınacaqlı nəticələrindən bərk ehtiyat edir, qorxurlar.

***İnam Hacıyev***

## Gələcək müqəddaratımızın xilaskarı
# BÖYÜK ŞƏXSİYYƏT



İftixar PİRİYEV,
Əməkdar mədəniyyət işçisi

Müstəqil Azərbaycan dövlətinin Xilaskarı, görkəmli dövlət xadimi, Ulu Öndər Heydər Əliyev ölkə həyatının bütün sahələrini əhatə edən misilsiz xidmətləri ilə dövlətimizi və xalqımızı dövrün ən çətin sınaqlarından çıxararaq, ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmuşdur. Müasir Azərbaycan dövlətinin varlığını qoruyan və Azərbaycan qarşısında tarixi bir missiyaya imza atan Ulu Öndər xalqın və ölkənin taleyində əvəzsiz rolu, zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi ilə Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxaran və ardıcıl mübarizə apararaq, onu müstəqilliyə qovuşduran Ulu Öndər Heydər Əliyev xalqın xilaskarı və Azərbaycanın Memarı və Qurucusu olaraq adını əbədiləşdirdi.

1993-cü ilin 15 iyun tarixində Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıdaraq xilaskarlıq missiyasını yerinə yetirməsi xalqımız tərəfindən dövlətimizin qurtuluşu kimi - Milli Qurtuluş Günü olaraq tariximizə daxil oldu. Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Bütün maneələrə baxmayaraq, ən qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. O dövrə nəzər salarkən baş verən hadisələrin xalqı, bütövlükdə, uçuruma sürüklədiyinin şahidi oluruq. Belə bir zamanda xalqın təkidi və istəyi ilə hakimiyyətə gələn, Qayıdışı ilə böyük nailiyyətləri Azərbaycan salnaməsinə daxil edən Ulu Öndər Heydər Əliyev Ona etimad göstərənlərin ümidini tez bir zamanda doğrultdu.1993-cü ilin oktyabr ayının 3-də Ulu Öndər Heydər Əliyevin Prezident seçilməsi ölkəmizdə iqtisadi sabitliyin təmin edilməsi, tənəzzülə uğramasının qarşısının alınması və yeni dövrün tələblərinə uyğun şəkildə islahatların həyata keçirilməsində böyük əhəmiyyət kəsb etdi. Həmin tarixdə keçirilmiş prezident seçkiləri müstəqil Azərbaycan dövləti üçün qurtuluşa aparan yolun ilk pilləsi olmuşdur.

Xalq böyük səs çoxluğu ilə 98,8 faizlə xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən Ulu Öndər ölkəmizi böyük bəlalardan, faciələrdən hifz edib, ölkəni sabitlik, iqtisadi inkişaf və tərəqqi yoluna çıxarıb, qlobal enerji-kommunikasiya layihələrini reallaşdırmaqla Vətənə sədaqətlə xidmətin əyani nümunəsini yaradıb. Andına və xalqına sadiq qalmış Ulu Öndər Ümummilli Lider andiçmə mərasimindəki nitqində belə deyib:"Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə, Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm". Ulu Öndərin 1993-cü ilin oktyabrında dövlət başçısı seçilməsindən sonra müstəqil Azərbaycanın hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi əsaslı şəkildə sürətlənmişdir. Ümummilli Lider ilk növbədə, ölkədə ictimai-siyasi sabitliyin bərpası istiqamətində gərgin iş aparmış, qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirilmiş, respublikamızın sosial-iqtisadi yüksəlişinə yol açan ən mühüm amil kimi cəmiyyətdə ictimai-siyasi sabitlik bərqərar edilmişdir. Dövlət çevrilişlərinin qarşısı alınmış, Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən xilas olmuşdur. Müstəqil dövlətimizin ərazi bütövlüyünün bərpası və Ermənistan silahlı qüvvələrinin hücumlarının qarşısının alınması, ölkənin müstəqilliyinin qorunub saxlanması üçün ordu quruculuğu istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə, dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar yaratdı. Ulu Öndər Heydər Əliyev Böyük Şəxsiyyət olaraq, cəmiyyətin sivil inkişafını hər bir fərdin maraq və mənafelərinin etibarlı təminatında görür və buna xidmət edən bütün zəruri tədbirləri həyata keçirirdi. 1995-ci il 12 noyabrda müstəqil Azərbaycanın Konstitusiyası referendum yolu ilə qəbul edildi, bundan sonra sistemli şəkildə ölkədə demokratik islahatlar aparıldı.Azərbaycanda dövlət quruculuğu, iqtisadi dirçəliş, sosial-siyasi həyatda tərəqqi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Heydər Əliyev Azərbaycanı bir dövlət, xalqımızı isə bir millət kimi tarixin ağır və sərt sınaqlarından uğurla çıxarıb. Azərbaycan dövlətini dünya dövlətləri arasında irəli çıxaran, ölkəmizi parçalanmaq təhlükəsindən xilas edən, respublikamızın inkişafına möhkəm zəmin yaradan Ulu Öndər Heydər Əliyevin siyasi kursu nəticəsində, Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi.

Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir. Ulu Öndərin quruculuq və inkişaf xəttinin davamçısı olan Cənab İlham Əliyev Onun siyasi kursunu uğurla davam etdirməklə, ölkəmiz sabitliyin və inkişafın, vətəndaş həmrəyliyinin təmin olunduğu güclü dövlətə çevrilib. Azərbaycan Prezidenti Cənab İlham Əliyev hələ 2003-cü ildə Prezident seçkiləri ərəfəsində qeyd etmişdi ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, mən Heydər Əliyev siyasətini davam etdirəcəyəm. Ötən on doqquz il, aydın şəkildə göstərdi ki, İlham Əliyev Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hər birini yerinə yetirmişdir. Möhtəşəm nailiyyətlərin əldə olunması Azərbaycanı güclü və qüdrətli dövlətə çevirib.Uzaqgörən və məqsədyönlü qərarları ilə ölkəmizdə sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olan Ulu Öndər Heydər Əliyevin - tarixi Şəxsiyyətin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncam imzalamış və Sərəncama əsasən, Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilməsi Ulu Öndəri irsinə, ictimai-siyasi fəaliyyətinə olan münasibətdir ki, bu zəngin həyat yolu bir daha tədqiq olunaraq öyrəniləcəkdir.Azərbaycan Vətən müharibəsində döyüş meydanında da öz sözünü demiş oldu. Ulu Öndər Heydər Əliyevin həyat amalı, zaman və məkan anlayışına sığmayan siyasi fəaliyyətinin əsas məqsədi azad və müstəqil bir dövlət qurmaq idi. Daim azərbaycanlı olması ilə fəxr edən Ulu Öndərin ruhu şaddır. 30 ildən bəri düşmən əsarətində olan torpaqlarımız azadlığına qovuşmuşdur. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. Əlbəttə ki, bu uğurların təməlində Dahi Şəxsiyyət Heydər Əliyevin düşünülmüş siyasəti dayanır. Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

# Kimlər ünvanlı sosial yardım ala bilər?
## *QURUM RƏSMİSİ AÇIQLADI*



"Ünvanlı dövlət sosial yardımı aztəminatlı ailələrə dövlət tərəfindən göstərilən pul yardımıdır. Aztəminatlı ailə orta aylıq gəlirləri hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan ailədir". Bu sözləri SİA-nın sorğusuna cavab olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun İctimaiyyətlə əlaqələr departamentinin müdiri Rəşad Mehdili deyib.

Onun sözlərinə görə, ehtiyac meyarı isə əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumundan asılı olaraq ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə dövlət büdcəsi ilə birgə hər il üçün təsdiq olunan həddir: "2022-ci il üzrə qanunla 1 nəfər üçün ehtiyac meyarı 200 manat müəyyən olunub.

Sosial yardım ailənin gəlir və xərcləri nəzərə alınmaqla təyin olunur. Bu məqsədlə ailə dedikdə birgə yaşayan ümumi ev təsərrüfatına malik olan bütün şəxslər nəzərdə tutulur. Ailənin gəliri dedikdə ailə üzvlərinin bütün növ gəlirləri, ailə üzvlərinin əməkhaqları, ailə üzvünə ödənilən pensiya, müavinət, təqaüd, ailə üzvlərinə bağışlanmış hədiyyələr, mülkiyyətdən, ailə üzvlərinə məxsus əmlakdan, şəxsi yardımçı təsərrüfatdan əldə olunan və yaxud əldə oluna biləcək pul və natural formada gəlirlər nəzərdə tutulur".

Rəşad Mehdili sözlərinə belə davam edib: "Ailə üzvlərindən əmək qabiliyyətini itirmiş, ailədə birinci dərəcə əlilliyi olan şəxsə, 8 yaşına çatmamış uşağa və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa qulluq edən, əmək qabiliyyətli 23 yaşadək əyani təhsil alan, işsizlikdən sığorta ödənişi alan şəxslərdən məşğulluq tələb edilmir.

Ailəni təmsil edən yetkinlik yaşına çatmış və əmək qabiliyyətli şəxs, belə şəxs olmadıqda isə qəyyum sosial yardımın alınması üçün müraciət edə bilər. Bu zaman yaşayış yeri üzrə ailə tərkibi haqqında arayış alınaraq notariusa təmsilçilik ərizəsinin alınması üçün müraciət edilir. Notarius tərəfindən təsdiq edilmiş təmsilçilik barədə ərizədə göstərilən ailəni təmsil edən şəxs "Elektron hökumət" və ya Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin internet səhifəsində yerləşdirilmiş "ünvanlı sosial yardımla bağlı müraciətin edilməsi" elektron xidmətindən istifadə etməklə "Ərizə-bəyannamə"ni dolduraraq "Ünvanlı yardım" (VEMTAS) altsisteminə göndərir.

Artıq ünvanlı dövlət sosial yardımı almaq üçün müraciət edərkən vətəndaşlardan əmək haqları, əmək müqavilələri, mobil rabitə xərcləri, pensiya, müavinət, təqaüd və əlillik dərəcələri barədə məlumatların bəyan edilməsi tələb olunmur. Çünki sistemdə aparılan optimallaşdırma nəticəsində həmin məlumatlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş elektron informasiya sistemindən, həmçinin inteqrasiya olunmuş digər qurumların informasiya sistemlərindən əldə olunur. Bununla yanaşı vətəndaşın kommunal xərclərini bəyan etməsinə də ehtiyac qalmır. Çünki vətəndaş abonent kodunu qeyd etdikdə həmin kodlar üzrə illik xərclər informasiya sistemindən əldə olunur.

Ünvanlı dövlət sosial yardımı üçün müraciət edən ailələrin istifadəsində və mülkiyyətində nəqliyyat vasitəsinin və müxtəlif ünvanda iki və daha çox eyni təyinatlı daşınmaz əmlakın olmaması vacibdir. Bundan əlavə ailənin adambaşına düşən kommunal və rabitə xərclərinin cəminin orta aylıq məbləği ölkə üzrə təsdiq olunmuş yaşayış minimumunun 15 (on beş) faizinə bərabər və ya ondan yuxarı olmamalıdır.

Sosial yardımın alınması üçün müraciətlər öncə elektron sistem tərəfindən 15 iş günü müddətində araşdırılır və müvafiq qərar çıxarılır. Elektron sistem tərəfindən ailənin sosial yardım almağa uyğunluğu müəyyən edilərsə, bu halda ailənin ərizə bəyannaməsində göstərdiyi məlumatlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları tərəfindən yerində yoxlanılır. Göstərilən məlumatlar təsdiqini taparsa, ailəyə sosial yardım təyin edilir. Ünvanlı dövlət sosial yardımı müraciət edilən ayın 1-dən etibarən 1 il müddətinə təyin olunur".

***Ayşən Vəli***

# Bakcell şəhid və qazi ailələrinə dəstəyini davam etdirir




"Bakcell"in şəhid və qazi ailələrindən olan qadınların təhsil və məşğulluq imkanlarının artırılmasına yönəlmiş Korporativ Sosial Məsuliyyət (KSM) layihəsi başa çatıb. 2021-2022-ci illəri əhatə edən layihədə 16 qadın iştirak edib. İlkin mərhələdə onlara motivasiya, məqsədlərinin müəyyən olunması, yumşaq bacarıqların inkişaf etdirilməsi, CV-nin tərtib olunması, şəbəkələşmə və s. mövzularında seminarlar və praktik məşğələlər keçilib.

Növbəti mərhələdə qadınlar 7 ay davam edən ingilis dili, rus dili, kompüter, kiçik biznesin qurulması və idarə olunması, mühasibatlıq kimi kurs və təlimlərə qatılıblar. Layihə benefisarları öz istəklərinə uyğun olaraq təhsillərini davam etdirmək, peşə təhsilinə başlamaq və işlə təmin olunmaq kimi imkanlardan yararlanıblar. Müharibədən əziyyət çəkən uşaqlara və həmçinin şəhid və qazilərin ailə üzvlərinə qayğı və diqqətin göstərilməsi Bakcell şirkətinin KSM proqramının əsas istiqamətlərindən biridir. Şirkət bu sahədə bir neçə layihə həyata keçirir.



# ŞƏHİDLƏR ÖLMƏZ, VƏTƏN BÖLÜNMƏZ!

*Respublikamızın hər yerində şəhidlərimizin məzarları ziyarət olunur, əziz xatirələri dərin ehtiramla anılır*

Anım günü münasibətilə Yeni Azərbaycan Partiyası Laçın rayon təşkilatının kollektivi, YAP fəalları və şəhidin ailə üzvləri, şəhid Əliyev Nihad Heydər oğlunun məzarını ziyarət ediblər. Şəhidin məzarı önünə tər güllər düzülüb, ruhuna dualar oxunub. YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasov şəhidin ailəsinə dərin hüznlə baş sağlığı verərək, səbr diləyib, eləcə də Azərbaycan ordusunun qüdrətindən, Şəhidlərimizin döyüş zamanı göstərdikləri şücaətdən və vətənpərvərliklərindən söz açıb. İ. İlyasov qeyd edib ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Rəşadətli ordumuz torpaqlarımızı işğaldan azad etdi. Qəhrəman oğullarımızın həyatları bahasına azad olunmuş torpaqlarımızda bu gün müqəddəs bayrağımızın dalğalanması hər birimiz üçün qürurvericidir. Çıxış edənlər, şəhidin həyatından, döyüş yolundan, qəhrəmanlıqlarından bəhs ediblər. Sonra YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasov tərəfindən Şəhidin atasına xatirə hədiyyəsi təqdim edilib. Şəhidin ailə üzvləri, Şəhid ailələrinə, Qarabağ qazilərinə və döyüşçülərinə göstərilən dövlət qayğısına görə cənab Prezident İlham Əliyevə və ölkənin birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya dərin təşəkkürünü və minnətdarlığını bildiriblər. Qeyd edək ki, Əliyev Nihad Heydər oğlu Kəlbəcər rayonunun Murovdağ yüksəkliyinin azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 2 oktyabr 2020-ci il tarixində Ağcabədi rayonunun Taxtakörpü ərazisindəki Alxaslı obasında Alxaslı kənd qəbiristanlığında dəfn olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin Sərəncamlarına əsasən, ölümündən sonra "Vətən uğrunda" medalı, "Kəlbəcərin azad olunmasına görə" medalı və "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunmuşdur.



Dünən 44 günlük Vətən müharibəsində qəhrəmancasına şəhid olmuş Biləsuvar rayonunun Nəsimi kəndindən olan şəhid Vəliyev Sehran Nizami oğlunun və Xırmandalı kəndindən olan şəhid Məmmədov Elvin Tərlan oğlunun şəhadətlərinin ikinci ildönümləri qeyd olunmuşdur. Mərasimdə YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Qurbanlı, RİH-i başçısının birinci müavini Azər Cəfərli, partiya fəalları və ictimaiyyət nümayəndələri iştirak edərək şəhidlərimizin əziz xatirələrini ehtiramla anıb, ruhlarına dualar oxuyub və valideynlərinə başsağlığı veriblər.





3 oktyabr 2022-ci il tarixdə Azərbaycanın 44 günlük Vətən müharibəsində Ağdaş rayonunun şəhidi Namətov Naib Firqət oğlunun ildönümü qeyd olunub. Bu münasibətlə rayonun Qarağan Sədi kənd qəbiristanlığında keçirilən tədbirdə YAP Ağdaş rayon təşkilatının sədri Əlişah Rəcəbov və partiya fəalları, Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İsmayıl Yusifzadə, Rayon İcra Hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağdaş rayon şöbəsinin əməkdaşları və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər. Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidimizin əziz xatirəsi ehtiramla anılmış, məzarı üstünə tər güllər düzülmüş, ruhuna dualar oxunmuş, döyüş yolu barədə söhbət açılmış, anasına başsağlığı verilmişdir.





Bundan başqa, YAP Tərtər rayon təşkilatının sədri Eldar Əsədov, Tərtər rayon İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Ülvi Nəcəfov və ictimaiyyət nümayəndələri ölkəmizin ərazi bütövlüyü uğrunda gedən 44 günlük Vətən müharibəsi döyüşlərində qəhrəmancasına şəhid olmuş Kəlbəcər rayon sakini, Tərtər rayon Bəyimsarov kəndində müvəqqəti məskunlaşan Mustafayev Əlizamin Baxış oğlunun şəhid olmasının ikinci ildönümü ilə əlaqədar şəhidin ailəsində olmuş, valideyninə və yaxınlarına baş sağlığı vermişlər. Qeyd edək ki, Mustafayev Əlizamin Baxış oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən, "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir. Şəhidin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və birinci vitse Prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Allah şəhidlərimizə rəhmət eləsin!.

# 27 il işğalda olan Cəbrayıl şəhəri azad edildi

*Prezident İlham Əliyev: "İlk dəfə olaraq müharibənin birinci həftəsində şəhər, rayon mərkəzi azad edilmişdi"*

“Bu gün Azərbaycan ordusu Cəbrayıl şəhərini və rayonunun bir neçə kəndini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan ordusuna! Qarabağ Azərbaycandır!” Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 4 oktyabr 2020-ci il tarixli rəsmi ”Twitter” səhifəsində yazmışdı. Həmin gün Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri işğaldan azad olunmuşdu. ”Oktyabrın 4-ü bizim tariximizdə əbədi qalacaq. Çünki oktyabrın 4-də Cəbrayıl şəhəri işğalçılardan azad edildi və bu Qələbənin çox böyük mənası var idi. Çünki ilk dəfə olaraq müharibənin birinci həftəsində şəhər, rayon mərkəzi azad edilmişdi”, - deyə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Cəbrayıl rayonu ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirmişdir: ”Bu, bizim Ordumuza əlavə güc verdi, inam verdi və bu Qələbədən sonra bizim şanlı Ordumuz öz tarixi missiyasını digər yerlərdə də icra etmişdir. Cəbrayıllılar yaxşı bilirlər ki, müharibənin ilk günündə Cəbrayılın iki kəndi işğalçılardan azad edilmişdir - Böyük Mərcanlı və Nüzgar kəndi və Füzuli rayonunun 4 kəndi və bu, bizim birinci uğurumuz idi”.

Bu gün Cəbrayıl şəhərinin Ermənistan silahlı qüvvələrinin 27 illik işğalından azad edildiyi gündür. Düz iki il bundan öncə - 2020-ci il oktyabrın 4-də Cəbrayıl şəhəri düşmən tapdağından azad olundu. Üçrəngli müqəddəs Azərbaycan bayrağı Cəbrayılda dalğalanır.

Vətən Müharibəsi başa çatandan az sonra - 2020-ci il noyabrın 16-da Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad olunan Cəbrayıl rayonuna səfər etdi. İlham Əliyev Cəbrayıl şəhərində və Xudafərin körpüsündə Azərbaycan bayrağını qaldırdı. Hər kəsə bəllidir ki, qədim Xudafərin körpüsünün düşməndən azad edilməsi və Müzəffər Ali Baş Komandanın bu körpüdə Azərbaycan bayrağını ucaltması böyük tarixi, siyasi önəm daşıyırdı. Çünki Xudafərin xalqımızın mənəviyyatında, tarixində dərin iz buraxıb. Çünki Xudafərin bizim üçün milli qürur məsələsidir.




## XUDAFƏRİN KÖRPÜSÜNÜN ÜZƏRİNDƏ 27 İL SONRA ÜÇRƏNGLİ AZƏRBAYCAN BAYRAĞI UCALDILDI

Vahid Azərbaycan rəmzi kimi qəbul edilən Xudafərin körpüsü də Cəbrayıl rayonunda yerləşir. Bu körpü haqqında ilk məlumat VIII-IX əsrlərə aiddir. Xudafərin körpüsü Cənubi Azərbaycanla Şimali Azərbaycanın orta əsr şəhərlərini birləşdirən, karvan yolunun üstündə tikilib. O, həm də mühüm hərbi-strateji əhəmiyyət daşıyır. Oktyabrın 18-i tariximizə daha bir şanlı gün kimi yazıldı. Cəbrayıl rayonunda yerləşən tarixi Xudafərin körpüsünün üzərində 27 il sonra üçrəngli Azərbaycan bayrağı ucaldıldı. Vətən Müharibəsində böyük zəfərlərə imza atan müzəffər ordumuz tarixi abidəni öz sahibinə qovuşdurdu.

Cəbrayıl şəhəri və rayonu 1993-cü il avqustun 23-də işğal edilib. İşğal vaxtı Cəbrayıl rayonu 1 şəhər, 4 qəsəbə və 97 kənddən ibarət idi. İşğal nəticəsində Cəbrayıl rayonuna 13,928 milyard ABŞ dolları həcmində maddi ziyan dəyib, mənəvi ziyanı ölçməksə sadəcə, mümkün deyil. Cəbrayıllı məcburi köçkünlər respublikamızın 58 rayonu üzrə 2 minədək yaşayış məntəqəsində, eləcə də qaçqın düşərgələrində, yük vaqonlarında və yataqxanalarda məskunlaşmışdır. İşğala məruz qalarkən rayonun 52 min nəfər əhalisi olub. Cəbrayıldan Birinci Qarabağ müharibəsində 362 nəfər şəhid, 191 nəfər əlil olub. Rayonun 6 sakini Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

1050 kvadratkilometri əhatə edən Cəbrayıl rayonunun ərazisi, o cümlədən 100-ə yaxın kənd, 72 ümumtəhsil məktəbi, 150 mədəniyyət ocağı, 132 tarixi abidə işğal vaxtı vəhşicəsinə talan edilib, dağıdılıb.

Cəbrayılda qaynar mədəniyyət, elmtəhsil, maarif mühiti olub. Rayonda 3 musiqi məktəbi, 12 mədəniyyət evi, 32 klub, 10 mədəni çadır və avtoklub, 78 kitabxana və 1 muzeydə 508 mədəniyyət işçisi, 72 məktəbdə 1660 nəfərdən çox müəllim çalışıb. Rayon Tarix-diyarşünaslıq muzeyində 20 mindən çox eksponat olub.

44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandanın rəhbərliyi ilə Müzəffər Ordumuz torpaqlarımızı erməni təcavüzkarlarından azad edərək işğala son qoydu.

Prezident İlham Əliyev 2020-ci il noyabrın 26-da ”Cəbrayılın azad olunmasına görə” medalını təsis edib. Qəhrəmanlıq və şücaət təcəssümü olan bu dövlət təltifi Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 22744 hərbi qulluqçusuna verildi.



## CƏBRAYIL ŞƏHƏRİ YENİDƏN QURULUR

Azərbaycanın işğalçı Ermənistan üzərində parlaq qələbə qazanmasından sonra qısa bir zamanda azad olunan ərazilərimizdə bərpa-təmir, abadlıq və quruculuq işlərinə start verildi. Bildiyimiz kimi, işğal altında saxlanılan ərazilərimizdə dağıdılan yaşayış məntəqələri, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılıb, tarixi-mədəniyyət və dini abidələrimizə ciddi ziyan dəyib, fərdi və çoxmənzilli yaşayış evləri məhv edilib. Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı neçə əsrlik tarixi olan yeraltı və yerüstü sərvətlərimizə qarşı olan vandallıq əməlləridir. Bu gün artıq ərazilərimizdə intensiv şəkildə bərpa və yenidənqurma işləri həyata keçirilir, Azərbaycan öz ərazilərini bərpa edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cəbrayıla səfəri çərçivəsində Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoymuşdu. Bu gün Azərbaycan Ordusu tərəfindən işğalçılardan azad edilən Cəbrayıl şəhəri yeni dövrünü yaşayır. Erməni vandalları, təcavüzkarları tərəfindən dağıdılmış əraziləri yenidən qurmaq böyük güc, potensial və zaman tələb edir. Ölkəmizdə yenidənqurma, abadlıq və quruculuq işlərinin aparılması məqsədi ilə bütün güclər səfərbər olunub və işğaldan azad edilən ərazilərdə tezliklə yeni işıqlı həyat başlanacaq.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Dünyada baş verən kağız qıtlığı ölkəmizə necə təsir edir?

Dünyada baş verən kağız qıtlığı problemin təsirinə düşməmək üçün bir çox dövlətlər xarici ölkələrdən məhsul tədarük edirdilər. Kağız tədarükçülərin məhsullarını ağartmaq üçün lazım olan idxal kimyəvi maddələrin çatışmazlığı ilə bağlı prosesin həyata keçirilməsini ləngitdiyini də qeyd edirlər. SSRİ bir vaxtlar Rusiyada bütün daxili tələbatı təmin edən maddələr istehsal edirdi, amma indi bir dənə də olsun müəssisəsi qalmamışdır. Finlandiya kağız mövzusu üzərində bir çox layihələr həyata keçrilmişdir, nəticədə o, Rusiya da daxil olmaqla bütün Avrasiya üçün natrium xloridin ümumi tədarükçüsü olmuşdur. Kağız qiymətlərindəki artım tələblə bağlıdır. Bir çox müəssisələr kağız olmadan işləyə bilmir. Lakin belə qiymət artımı onları düşünməyə vadar edir ki, elektron sənəd dövriyyəsinə keçməyin vaxtı çatıb. Hazırda qonşu dövlət Rusiyada üç böyük ofis kağızı istehsalçısı var. Bütün müəssisələr daxili bazarı kağızla təmin etməklə yanaşı, xarici ölkələrə də məhsul tədarük edirdi, lakin son dönəmlərdə baş verən Rusiya- Ukrayna müharibəsi bu mövzudan təsirsiz ötüşməyib. Ekspertlər qeyd edir ki, bir çox işbazlar anbarlarında kağızı girov saxlayırlar və tələbin pik həddə çatması, nəticədə qiymətlərin pik həddə qaldırmasını gözləyirlər. Kağız yazı sahəsində qıtlığı azaltmaq üçün elektron mediaya daha üstünlük verə bilərlər. Lakin kağız həm də karton, sənətkarlıq kağızı, etiketlər, pul və s qablaşdırmalarda da isifadə olunur. Karton və kraft kağız istehsalçıları 2020-ci ildə istehlak modelinin fiziki alışdan onlayn alışa dəyişməsi bütün qablaşdırma növlərinə tələbatın kəskin şəkildə artmasına gətirib çıxarmışdır.



### Bəs ölkəmizdə vəziyyət necədir?

Azərbaycana ötən il gətirilən 16,696 min ton kağız və kartonun (tərkibində mexaniki və kimyəvi üsulla alınmış lif olmayan, 1 kvadratmetrinin kütləsi 40-150 qram olan kağız və karton vərəq/rulon, digərləri) 16,168 min tonu və ya 97 %-i, qəzet kağızının (rulonlarda və ya vərəq şəklində) 100 %-i Rusiyanın payına düşmüşdür. Bu isə o deməkdir ki, Rusiya-Ukrayna arasındakı müharibə səbəbindən kağız məhsulları ilə təminatda problem yaşana bilər.

**Yazıçı, Qanun Nəşrlər Evinin redaktoru Şərif Ağayar** SİA- ya açıqlamasında kağızın bahalaşması çap mətbuatlarından çox nəşriyyata təsir etdiyini bildirib.



Onsuzda bu gün Azərbaycanda çap mediası mənim müşayiət etdiyim qədər elə də dəbli deyil. Çap mediasının qəzet və jurnalların özünün də, elektron səhifələri var. Çox nadir hallarda özüm qəzet alıram, daha çox elektron mediadan oxuyuram. Bu mənada nəşriyyatı elektron məhsullar əvəz edə bilmir. Düzdür, PDF kitablar var, bu günün reallığıdır ancaq həqiqətləri o dərəcədə əsaslı şəkildə daha çox ədəbiyyatı kitablardan, əsasən də elmi kitablardan oxuyuruq. Bu mənada nəşriyyatlara mənfi təsir göstərmişdir . Uzun illərdən sonra Azərbaycan ölkəsi ƏDV- mi ləğv edən kimi dərhal iki dəfə qədər kağız qiymətlərdə artım oldu və daha çox bu məsələyə təsir göstərən Rusiya- Ukrayna müharibəsi olmuşdur. Bu da kitabların bahalaşmasına gətirib çıxartdı. Azərbaycanda kitab məhsullarının eləcə də, qəzet və jurnalların az satılmasının əsas səbəblərindən biri də insanların maddi vəziyyəti ilə bağlıdır. Evdə daha ciddi ehtiyacı olan məhsulları alır, sonra kitaba pul xərcləyirlər. Bu mənada büdcədən oxu üçün nəzərdə tutulan vəsaitə təbii ki ciddi təsir edir. Biz 70/80 faiz bəlkə də çoxu informasiyaları elektron mediadan alırıq. Kağızın qiymətinin bahalaşması bu prosesi daha da genişləndirməyə yol açacaqdır. Amma kağızın qiyməti qalxmazdan öncə də operatavlik baxımından sosial media bu yönəmdə çox öndə gedirdi. Bütün bunların qarşılığında mətbuatı yalnız analitik yazılar, xüsusi müəllif yazıları ilə öndə görə bilərik. Xüsusi təhlil, müəllif yazıları, araşdırmalar yalnız çap mediasının ayaqda saxlaya bilər. Bir də medianı qəzet və jurnallara yaşlı nəsli nümayəndələri daha çox maraq göstərir. O insanların sayı çox olmasa da var, amma onları 90- cı illərdə daha çox görürdük . Kitab nə qədər elektron versiyalar, müasir texnologiyalar nə qədər inkşaf etsə də klassik kitab öz tempi ilə getməkdədir. Hazırda kitablarla bağlı bir tədbirə hazırlaşırıq, sentyabrın 27 -dən oktyabrın 1 -ə qədər Bakı İdman Sarayında 4 -cü Milli Kitab sərgi yarmarkası keçiriləcək . Qiymətlərin qalxması və insanların kitaba marağı qane edən səviyyədə olmaması bizi ümidsizliyə yuvarlamamalıdır. Dördüncü kitab sərgisinin ən önəmli müsbət cəhəti ondan ibarətdir ki, bunu dövlətin xüsusi dəstəyi olmadan xüsusi nəşriyyatlar həyata keçirilir. Ziyarətçilərin və kitab oxucuların ayaqda saxladığı bir sərgidir. Biz bunun artıq 4- cüsini keçiririksə nələrsə öz qaydasında gedir deməkdir. Bütün mətbuatlara bu çətin vəziyyətlərdə təklif edirəm ki, bütün ziyalılar və qələm adamları kitabın yanında olsunlar . Həm sərgidə iştirak etmək, həm kitaba büdcə ayırmaq imkanı olmasa belə gəlib sərgidə gəzmək öz övladlarını bu kitab aləmi ilə tanış etmək çox vacib şərtdir.

Çapar yayınlarının təsisçisi Yusif İlhamoğlunun sözlərinə görə dünyada kağız qıtlığının yaşanması ölkəmizdə dərc olunan jurnal və kitab çapının qiymətlərinə birmənalı olaraq təsir göstərib.

Təsəvvür edin ki, bir il öncə çap etdiyimiz jurnala hazırda daha 30% daha çox xərcimiz çıxır. Kitablar da eyni qaydada. Bir-iki ay öncə ümumiyyətlə kitab kağızı yox idi. Mətbəələr bizə ofislərdə istifadə olunan ağ kağız təklif edirdilər. Ağ kağız həm kitab çapında arzuolunan deyil, həm də onun da qiymətləri barədə son vaxtlarda hər kəsin xəbəri oldu. Kitab sektorundan ƏDV-nin götürülməsi kitabın qiymətinə təsir edəcək deyə düşünürdük, həmin gözlədiyimiz təsirin olmaması bir tərəfə, kağız qıtlığı sayəsində əks istiqamətdə çox böyük bahalaşma ilə qarşılaşdıq.



Mətbəələrdə düşünürəm ki, kağız ehtiyatı yoxdur. Çünki mətbəələr özləri kağız gətirmirlər, ya da gətirə bilmirlər, kağız ehtiyacını topdançı şirkətlərdən təmin edirlər. Həmin şirkətlər də nəşriyyatlardan və mətbəələrdən asılılıqları olmadığına görə özləri istədikləri qiyməti təyin edə bilir, istədikləri adama istədikləri həcmdə kağız verirlər. Bir də istər kağız satan topdançı şirkətlər, istərsə də mətbəələr işlərini, planlarını dərsliklər, test kitabları və s. üzərində qurduqlarına görə nəşriyyatlar əziyyət çəkirlər. Ənənəvi çap mediasına tələbin aşağı olduğu, qiymətlərin kifayət qədər yuxarı olduğu bir dövrdə, indiki vəziyyətdən sonra biz nəşriyyatlar qiymətləri artırsaq, hansı ki buna məcburiyyət artıq yaranıb, oxucuları daha da uzaqlaşdırmış olacağıq. Elektron medianın ənənəvi medianı tam yıxa biləcəyinə isə inanmıram. Kağıza toxunaraq oxumaq istəyən insanlar bu gün də var, gələcəkdə də olacaq. Ölkəmizdə baş verəcək kağız qıtlığının qarşısını almaq həmçinin əlavə kağız tullantılarla yol verməmək üçün təkrar kağız istehsalı müəssələr də fəaliyyət göstərir.

**"Azərsun Holdinq" İctimaiyyətlə Əlaqələr şöbəsinin müdiri Rza Məmmədov:**

Ətraf mühitin qorunması üçün hər kəs məsuliyyət hiss etməlidir. İnsanlar ilk növbədə məişət tullantıları ilə rəftar zamanı çeşidləməyə diqqətli yanaşmalıdırlar. Artıq Bakıda və bölgələrimizin bir çox yerlərində təkrar emala yararlı tullantıların atılması üçün ayrıca qutular quraşdırılıb. İstifadədən sonra kağız tullantıları bu qutulara atdıqda



təbiətə dəstək vermiş oluruq. Bildiyiniz kimi kağız məhsulları müxtəlif ağaclardan hazırlanır. Tullantı kağızlar təkrar emal edərək yenidən istifadə olunur ki, bununda nəticəsində ətraf mühitin qorunmasına töhfə verilir.

"Azərsun Sənaye Parkı"nda fəaliyyət göstərən Kağızın Təkrar Emalı Fabrikinin illik istehsl həcmi 50 min tondur. 2014-cü ildən fəaliyyətə başlayan müəssisədə 1 ton kağızın təkrar emal edilməsi ilə 17 ağacın kəsilməsinin qarşısı alınır.- Ətraf mühitin qorunması üçün hər kəs məsuliyyət hiss etməlidir. İnsanlar ilk növbədə məişət tullantıları ilə rəftar zamanı çeşidləməyə diqqətli yanaşmalıdırlar. Artıq Bakıda və bölgələrimizin bir çox yerlərində təkrar emala yararlı tullantıların atılması üçün ayrıca qutular quraşdırılıb. İstifadədən sonra kağız tullantıları bu qutulara atdıqda təbiətə dəstək vermiş oluruq

Kaağız məhsulları müxtəlif ağaclardan hazırlanır. Tullantı kağızlar təkrar emal edərək yenidən istifadə olunur ki, bununda nəticəsində ətraf mühitin qorunmasına töhfə verilir. "Azərsun Sənaye Parkı"nda fəaliyyət göstərən Kağızın Təkrar Emalı Fabrikinin illik istehsl həcmi 50 min tondur. 2014-cü ildən fəaliyyətə başlayan müəssisədə 1 ton kağızın təkrar emal edilməsi ilə 17 ağacın kəsilməsinin qarşısı alınır.

***Havar Şəfiyeva***

# Əsası 29 il əvvəl qoyulmuş zəfər tarixi

**Azadlıq, müstəqillik həm ayrıca bir vətəndaş üçün, həm də bütöv xalqlar üçün ən müqəddəs, ən şirin nemətdir. Biz azadlığımızın, müstəqilliyimizin yolunu illərlə gözləmişik, mübarizə aparmışıq, bu yolda minlərlə şəhid vermişik. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir. Qüdrətli və möhkəm dövlət olmadan azadlıq və müstəqillik də olmur.**

Azadlıq, müstəqillik həm ayrıca bir vətəndaş üçün, həm də bütöv xalqlar üçün ən müqəddəs, ən şirin nemətdir. Biz azadlığımızın, müstəqilliyimizin yolunu illərlə gözləmişik, mübarizə aparmışıq, bu yolda minlərlə şəhid vermişik. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir. Qüdrətli və möhkəm dövlət olmadan azadlıq və müstəqillik də olmur.

Məhz belə bir dövlətin yaradılması bizə tariximizdə ən böyük zəfərlərdən birini-Qarabağı Ermənistan işğalından azad etməyi bəxş etdi. Bu qələbənin arxasında dayanan amil isə Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa olan, gücü bir dövlətin əsasını qoyan ümummilli lider Heydər Əliyev siyasətidir.

SSR-nin dağılması ilə Qarabağda başlamış münaqişə daha da alovlandı. Hazırlıqlı ermənilər qarşısında biz tam hazırlıqsızlıq vəziyyətdə idik. Üstəlik, Sovet İttifaqının və sosialist formasiyanın dəyişməsi özü ilə çoxsaylı ağır fəlakətlər gətirdi. Ölkədə xaos, hakimiyyətsizlik, sosial-iqtisadi fəlakət, anarxiya baş alıb gedirdi. Xalq xilas yolu axtarırdı...

1992-ci ildə Naxçıvan Ali Məclisinin sədri olarkən Heydər Əliyevin müstəqil, tarazlı və cəsarətli siyasət yeritməsi bütün Azərbaycan xalqının diqqətini cəlb edir, ona ümidləri artırırdı. İqtidar isə onun siyasətini separatçılıq kimi qiymətləndirir və Naxçıvan Muxtar Respublikasında hakimiyyət çevrilişi etməyə, qeyri-demokratik yolla Xalq Cəbhəsini muxtar respublika rəhbərliyinə gətirməyə cəhd edirdi. Bu elə bir dövr idi ki, daşnakların "Böyük Ermənistan" yaratmaq niyyətləri, Azərbaycanı Qafqazın siyasi xəritəsindən silmək planları reallaşmaq üzrə idi. Azərbaycan torpağı etnik əlamətə görə parçalanıb yox olmaq təhlükəsi qarşısında qalmışdı.

1992-ci il oktyabrın 24-də Xalq Cəbhəsi yerli təşkilatlarına məxsus silahlı dəstələr MR Daxili İşlər Nazirliyi binasını, yerli televiziya studiyasını ələ keçirdi. Qiyamçılar xalqa televiziya ilə müraciət edib mövcud hakimiyyət əleyhinə bəyanatlar verdilər. Lakin bu planlar baş tutmadı. Əhalinin böyük əksəriyyəti Heydər Əliyevin çağırışı ilə ayağa qalxdı. Silahlılar dövlət idarələrindən qovulub çıxarıldı.

Xalq xilas yolunu Heydər Əliyevin ölkəyə rəhbərliyində gördüyü halda iqtidarda olan və olmayan Xalq Cəbhəsi üzvləri, habelə hakimiyyəti itirmiş qüvvələr və onların əlaltıları arasında didişmə, satqınlıq, xəyanət yolu ilə hətta Azərbaycanın müstəqilliyi bahasına hakimiyyəti ələ keçirmək cəhdləri baş alıb gedirdi.

Gəncədə 1993-cü il iyun qiyamı vəziyyəti daha da ağırlaşdırdı. Burada hökumətə tabe olmayan bir qrup zabit "hərbi birlik" yaratmışdı. Onlara Surət Hüseynov rəhbərlik edirdi. 709 saylı hərbi hissə Müdafiə Nazirliyinə tabe olmurdu. İqtidar hərbi müxalifətin öhdəsindən gələ bilmirdi.

İyunun 4-də səhər hərbi qiyamı yatırmaq üçün hökümət Gəncəyə 3 minədək canlı qüvvə, güclü hərbi texnika yeritdi. İki qardaş üz-üzə dayandı. 709 saylı hərbi hissənin kazarmaları dağıdıldı, hərbi təyyarələr havaya qalxıb hava limanını darmadağın etdi. Lakin qiyamçılar daha fəal hərəkət etdilər. Onlar qan tökmək istəməyən qvardiyaçıları şəhərdən çıxarmaq adı altında avtobusa doldurub güllələdilər. Hökumət qüvvələri məğlub edildi. Qiyamçı hərbi hissələr Bakıya doğru yeriməyə, prezidentin və hökumətin istefaya getməsini tələb etməyə başladılar və müqavimətə rast gəlmədən paytaxta yaxınlaşdılar.

İyunun 14-də Nəvahi yaxınlığında qiyamçılarla hökumət qoşunları üz-üzə dayandı. Danışıqlar nəticəsində qiyamçıları Lökbatan yaxınlığında və Şamaxı yolunun 75 kilometrliyində saxlamaq mümkün oldu. Yaranmış vəziyyətlə əlaqədar parlamentin sədri, baş nazir, üç güc nazirliyinin rəhbərləri istefaya getməyə məcbur oldular. Ölkənin qabaqcıl adamları, ziyalılar, sadə əməkçilər böyük fəlakətin yaxınlaşdığını hiss edirdilər.

Bununla yanaşı xalqın sağlam qüvvələrinə arxalanan qurtuluş hərəkatı meydana gəlir və sürətlə genişlənirdi. Bu hərəkat zamanın böyük siyasətçisi Heydər Əliyevin ətrafında toplaşırdı. Ziyalı insanlar dəfələrlə Naxçıvana gedib yenidən böyük siyasətə qayıtmasını xahiş etmişdilər.

1992-ci il oktyabrın 16-da Azərbaycanın 91 nəfər nüfuzlu ziyalısı-alimlər, müəllimlər, jurnalistlər, hüquqşünaslar, həkimlər "Səs" qəzeti vasitəsilə Heydər Əliyevə Qurtuluş hərəkatına rəhbərlik etməsi barədə rəsmi müraciət etdi. Yeni Azərbaycan uğrunda siyasi hərəkat genişlənirdi.

Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyası (YAP) təşkil edildi. AXC-Musavat iqtidarı uzun müddət öz yarıtmaz fəaliyyəti ilə ölkəni parçalanmaq həddinə çatdırmışdı. Vətəndaş müharibəsi üçün zəmin yarandı. Başlanmış bu təhlükəli proseslərin qarşısını ala bilmədiyini dərk edən iqtidar son anda kömək üçün Heydər Əliyevə müraciət etdi.

Azərbaycanın görkəmli oğlu, böyük siyasətçi Heydər Əliyev xalqın bu ağır günündə, şübhəsiz, kənardan baxa bilməzdi. O, xalqın və respublikanın hakim dairələrinin təkidi dəvətini qəbul edib iyunun 9-da Bakıya gəldi. Bununla da daxili və xarici düşmənlərimizin bütün planları iflasa uğradı. Xilaskarlıq missiyasını öz üzərinə götürən bu nəhəng şəxsiyyət həyatını təhlükə altında qoyaraq Gəncəyə getdi. Hadisələrin daha faciəli nəticələrə gətirib çıxarmaması üçün öz ağsaqqal sözünü dedi. Onun Gəncəyə səfəri vətəndaş qarşıdurmasının genişlənməsinin qarşısını aldı.

Ümummilli lider Gəncədə baş verən hadisələrə münasibət bildirərkən demişdi: "Hadisələr dəhşətlidir. Qan tökülüb, cinayət edilib. Bunlar araşdırılmalıdır və qanunu pozmuş bütün adamlar, cinayətdə iştirak etmiş adamlar, cinayəti təşkil etmiş, hansı tərəfdən asılı olmasına baxmayaraq qanun qarşısında məsuliyyət daşımalıdırlar".

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Oktyabrın 3-də isə ümumilli lider xalqın böyük əksəriyyətinin səsini qazanaraq Prezident seçildi. Bundan sonra ölkədə qaydaqanun yaradılmasına başlanıldı, iqtisadi inkişaf proqramları işləndi, sosial vəziyyətin yaxşılaşdırılması üçün tədbirlər görüldü. Milli Ordu gücləndirildi. Məhz bunlar xalqımızı və dövlətimizi gözləyən böyük faciənin qarşısını aldı.

Dövləti olmayan xalq ölümə məhkumdur. Dövlətçilik xalqın "ölüm, ya olum" məsələsidir. Heydər Əliyevin xalqımızın və tariximizin qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtarmaqda idi. Dövlətimizin qorunub saxlanılması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması deməkdir, qurtuluş deməkdir!

Azərbaycan dövlətçiliyi ona qarşı yönəlmiş qəsdlərdən uğurla çıxdı. Ümummilli liderin qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı, sabitlik və əmin-amanlıq yaratdı.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə onun qətiyyəti, apardığı uğurlu daxili və xarici siyasət sayəsində ölkəmiz xaosdan xilas olmuş, sivil demokratik inkişaf yolu ilə inamla irəliləyərək böyük nailiyyətlər qazanmışdır. Heydər Əliyev öz gücünə, təcrübəsinə güvənən dahi siyasətçi kimi dəfələrlə söylədiyi məşhur kəlamına sadiq qaldığını sübut etdi- "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir".

Bu gün ümummilli liderin layiqli davamçısı olan Prezident İlham Əliyev bu siyasəti dönməz şəkildə uğurla davam etdirir və Azərbaycan dünyada nüfuzlu dövlətlərdən birinə çevrilib. Ölkəmiz həm iqtisadi, həm siyasi, həm mədəni, həm hərbi, həm elmi cəhətdən güclü inkişaf edir. Bunun nəticəsidir ki, 2020-ci ilin sentyabrın 27-də başlayan müharibəni Azərbaycan ordusu noyabrın 9-da böyük qələbə ilə başa vurdu və torpaqlarımızı azad etdi. Azərbaycan dünyadakı siyasi, iqtisadi, hərbi qüdrətini daha da artırdı. Bütün bunların əsası isə 1993-cü ildə- Ümummilli liderimiz tərəfindən qoyulub.

*Elçin*



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili- Azərbaycan dövlətçiliyi müasir mərhələdə" çərçivəsində hazırlanıb.

SON SƏHİFƏ

# SƏS

4 oktyabr
2022-ci il

# Cəza nədir və nə üçündür?

**“Cəza bir davranışın təkrar edilməməsi üçün tətbiq edilən müəyyən məhdudiyyət forması və acı verən üsuldur. Məsələn, uşağı vurmaq, otaqda bağlı saxlamaq, məhrum etmək və digərləri. Cəza uşaqda qorxu yaradır”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Leyla Əli deyib.**

Onun sözlərinə görə, uşaq müəyyən davranışı həyata keçirməyi istəmədiyindən deyil, cəzadan qorxduğu üçün etmir: ”Adətən, uşaqlar cəzadan qaçmaq üçün yalan söyləyir. Uşağın yalan danışması isə valideynin ”məğlub olması” deməkdir”.

Psixoloq sözlərinə belə davam edib: ”Maraqlıdır, bəs cəza verməsək necə davrana bilərik? Məşhur uşaq psixiatrı Dr.H.Ginotta'a görə cəza ilə verilən təlim-tərbiyə funksionallığını itirir, cəzalanan uşaq peşiman olmaq, səhvini qəbul etmək yerinə intiqam xəyallarına yönəlir. Cəza müddətli olmalıdır. ”Sənə bundan sonra həyətdəki uşaqlarla oynamağı qadağan edirəm” deyil, ”3 gün müddətində həyətdəki uşaqlarla oynamayacaqsan” demək daha doğrudur. Valideynləri seçmirlər. Övladları da həmçinin. Amma uşaqlar böyükləri təmənnasız sevirlər. Valideynlərə gəldikdə isə onlar övladlarının davranışlarında, həm də öz addımlarını müşahidə edə bilər. Çünki azyaşlılar hər zaman böyükləri təkrarlayır. Bütün uşaqların qorxu və təhlükədən uzaq olması diləyi ilə ”.



*Ayşən Vəli*

# Soğan qanda şəkərin miqdarını 4 saat ərzində aşağı salır

Ucuz və populyar tərəvəz olan soğan birinci və ikinci növ diabet xəstəliklərindən əziyyət çəkən pasiyentlərin qanında şəkərin miqdarını çox qısa müddətdə - cəmi 4 saat ərzində aşağı salmaq qabiliyyətinə malikdir.

Belə ki, alimlər soğandan istifadə zamanı qanda şəkərin miqdarının 40 milliqram/desilitr aşağı düşdüyünü müəyyən ediblər. Elmi işin müəlliflərindən biri olan Entoni Oçeh deyib: ”Soğan ucuz və əlçatan olan ərzaqdır ki, yeməklərə ədviyyat qismində qatılır. Ondan diabet xəstələrinin müalicəsində də istifadə etmək mümkündür”.

Mütəxəssislər hesab edirlər ki, soğanın bu xassəsi onun tərkibində kversetin və sulfidlərin mövcudluğu ilə izah olunur. Kversetin antioksidant və iltihab əleyhinə təsirə malik olan yaxşı öyrənilmiş flavonoidlər qrupuna daxildir.

## BİLİRSİNİZMİ?

Gözlərin hər biri 130 milyondan çox görmə sinir hüceyrəsindən ibarətdir. Hər hüceyrənin içində isə 100 trilyon atom var. Bu rəqəmlər isə ümumilikdə dünyadakı bütün ulduzların sayından daha çoxdur.

***

Əgər bir sözü xatırlamaqda çətinlik çəksəniz, yumruğunuzu sıxın. O zaman beyinin fəaliyyəti daha da artır və yaddaşı işə salmağa kömək edir.

***

Bir insan yaşadığı müddətdə ortalama 23 min dəfə göz qırpar, 100 min dəfə ürəyi döyünər, 23 min dəfə nəfəs alar, qaraciyərləri ilə 1500 litr qan süzülər, mədəsi ilə 2 litr asit turşusu istehsal edər.

***

İnsan burnunda 5 milyona yaxın iybilmə hüceyrələri mövcuddur. Alman ovçarkasında bu 220 milyona bərabərdir. Araşdırmalar göstərir ki, bu heyvanın iybilmə qabiliyyəti insanınkından 44 dəfə daha güclüdür.

***

Alyaska universiteti 4 müxtəlif saat qurşağında yerləşir.

***

ABŞ vətəndaşlarının 4%-i vegeteriandır.

# “İndi özümü yenilənmiş hiss edirəm"



Yay transfer pəncərəsində ”Bavariya”dan ”Barselona”ya keçən Robert Levandovski İspaniyadakı həyatı haqqında danışıb və Bundesliqa ilə La Liqanı müqayisə edib. Qol.az ”Mundo Deportivo”ya istindən xəbər verir ki, 34 yaşlı polyak ulduz futbolçu deyib: ”Burada - İspaniyada azarkeşlər texniki aspektləri Bundesliqadakından daha çox qiymətləndirirlər. Mən həmişə La Liqada oynamaq istəyirdim. İspaniyada yaşamaq mənim arzum idi. Bu, təkcə idman baxımından belə deyil. İndi özümü yenilənmiş hiss edirəm”.

Qeyd edək ki, Levandovski bu mövsüm 9 matçda 12 qol vurub və 2 qolun ötürməsini verib.

# Bu gün 32 dərəcəyədək isti olacaq



Oktyabrın 4-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, havanın temperaturu gecə 19-21° isti, gündüz 25-28° isti, Bakıda gecə 19-21° isti, gündüz 26-28° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət 55-65 % olacaq.

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 15-19° isti, gündüz 28-32° isti, dağlarda gecə 3-8° isti, gündüz 15-19° isti olacaq.

# Bu həftə maqnit qasırğası olacaq

**BDU-nun Astrofizika kafedrasından SİA-ya verilən məlumata görə, son üç gün ərzində Günəş aktivliyi yüksək səviyyədə olub. Günəş səthində aktiv oblastlarda radiosiqnalların orta təsirli - güclü kəsilmələrinə səbəb olan M və radiosiqnalların daha güclü kəsilmələrini yaradan böyük X1 alışmaları baş verib.**



Oktyabrın 1-də baş verən üç tac kütlə atılmasının analizi göstərib ki, sonuncu tac kütlə atılması özündən əvvəlki iki tac kütlə atılmasını qabaqlayaraq Yerə daha tez - oktyabrın 4-də gecə saatlarında çatacaq. 3-5 oktyabr tarixləri üçün Günəş aktivliyi yüksək səviyyədə olacaq.

Oktyabrın 1-də baş vermiş tac kütlə atılmasının Yerə yaxınlaşması nəticəsində oktyabrın 3-də geomaqnit sahədə mülayim, oktyabrın 4-də isə orta-mülayim səviyyəli geomaqnit qasırğası yaranacaq. Oktyabrın 5-də geomaqnit sahə sakit və aktiv səviyyədə olacaq. Oktyabrın 3-də Günəşdə alışmaların baş verməehtimalı C sinif alışmalar üçün 99%, M sinif alışmalar üçün 70% və X sinif alışmalar üçün isə 30%-dir.

## Başsağlığı

Səs Media Qrupu adından Bəhruz Quliyev Namiq Nəbiyevə dayısı

**Məmməd Nəbiyevin**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin.***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**